# ODLAR YURDU UNİVERSİTETİ

**“Humanitar, Təhsil və Dillər” fakültəsi**

**“Psixologiya, Pedaqogika və Sosial fənlər” kafedrası**

**Bakalavriat səviyyəsinin 050118 –“Təhsildə sosial-psixoloji xidmət” ixtisası üzrə**

# TƏHSİL PROQRAMI



**Bakı – 2020**

# ODLAR YURDU UNİVERSİTETİ

## Bakalavriat səviyyəsinin
## 050118 –“Təhsildə sosial-psixoloji xidmət”

# TƏHSİL PROQRAMI

*Təhsil proqramı Azərbaycan Respublikası Təhsil Nazirliyinin F-38 nömrəli 21.08.2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş bakalavriat səviyyəsinin 050118– “Təhsildə sosial-psixoloji xidmət” ixtisası üzrə Təhsil Proqramı əsasında hazırlanmış, Odlar Yurdu Universitetinin Elmi Şurasının 03.09.2020-ci il tarixli (protokol №1) iclasında təsdiq edilmişdir.*

## 1. İxtisasın pasportu

**050118-“Təhsildə sosial-psixoloji xidmət”** ixtisası elmi psixoloji biliklərin təhsil sahəsində çalışanların ehtiyaclarına uyğunlaşdırılmasına əsaslanan təhsil prosesinə psixoloji dəstək vermək üçün hazırlanmış təhsil müəssisələri sisteminin ayrılmaz elementlərindən biridir. Təhsildə sosial-psixoloji xidmət uşağın təhsil müəssisələrinin tələblərinə uyğunlaşmasına kömək etmək üçün bir xidmət olaraq yaradılmışdır.

Təhsildə sosial-psixoloji xidmətin əsas məqsədi məktəbəqədər və məktəb yaşındakı uşaqların psixoloji sağlamlığı üçün şəraiti təmin etmək, təhsil məkanının subyekti kimi hər bir uşağın fərdil inkişafının optimallaşdırılması, o cümlədən təhsildə ortaya çıxan psixoloji problemlərin aradan qaldırılması və s. ibarətdir.

Təhsildə sosial-psixoloji xidmətin həyata keçirilməsi aşağıdakı kimi prioritet **vəzifələrin** həllini tələb edir:

- müəllim fəaliyyətinin uşaq şəxsiyyətin fərdi inkişafına yönəldilməsinin təmin edilməsi;
- ümumtəhsil sistemində inkişafın sosial situasiyanın dəyişməsinə nail olunması.

Müasir şəraitdə, təhsildə-sosial psixoloji xidmət sahəsi daha çox təhsil psixoloqunun hazırlanması istiqamətinə ixtisaslaşmışdır. Sosial mədəni mühitdə təhsil psixoloqunun yerinin müəyyən edilməsinin əsas **yanaşmaları** aşağıdakılardır:

- Psixoloq inkişaf edən sosial-mədəni şəraitin yaradıcısı və təşkilatçısı kimi;
- Psixoloq uşağın fərdi inkiaşf yolunu seçməsinə kömək edən, diaqnostika aparan mütəxəsiss kimi;
- Psixoloq uşağın fərdi inkişafını təmin etmək üçün onun fərdi-psixoloji xüsusiyyətlərini nəzərə almaqla diaqnostik seçim aparan mütəxəsiss kimi;
- Psixoloq psixoloji məsləhətçi və konfiliktoloq kimi;
- Psixoloq uşağın inkişafını layihələşdirən mütəxəsiss kimi.
- Psixoloq uşağın psixi sağlamlığının qoruyucusu kimi.

Təhsildə sosial-psixoloji xidmətin əsas **məqsədi** təhsilin səmərəliliyini artırmaq, təhsil müəssisələrinin fəaliyyətlərini tam şəkildə təşkil edərək, uşaqların normal psixi inkişafına nail olmaqdır.

İxtisası bitirən məzunun əsas **fəaliyyət sahələri**:

- psixoloji təhsil;

- psixoloji profilaktika;
- psixoloji diaqnostika;
- psixoloji məsləhət;
- psixoloji korreksiya.

Bu gün t**əhsildə sosial-psixoloji xidmət** peşə fəaliyyəti, təhsilin inkişafında, xüsusən yenilikçi proseslərin başlanğıcında, dəstəklənməsində və araşdırılmasında mühüm rol oynayan bir sistemdir. Bunlar olmadan təhsilin daxili inkişafının indiki mərhələsində əsl humanistləşdirməni və həllini tələb edən vəzifələrin həyata keçirilməsi mümükün deyil.

Nəzərə almaq lazımdır ki, əsas problemlərdən biri ümumilikdə psixoloji xidmətin və xüsusən də təhsil psixoloqunun fəaliyyətinin məzmunun müəyyənləşdiriliməsidir.

Qeyd edək ki, o təhsil müəssisəsində eyni anda iki sahə üzrə mütəxəssisdir. O, həm psixoloq, həm də müəllimdir. O , fərqli insanlarla işləmək bacarıqlarını tətbiq etməyi bacarmalıdır. Həmçinin təhsil psixoloqu müəllimlər, valideynlər və məktəb psixoloqları, uşağın təhlükəsiz, sağlam və mehriban bir mühitdə öyrənməsini təmin edən digər mütəxəssislərlə işləməlidir.

Təhsildə sosial-psixoloji xidmətin məzunları aşağıdakı **peşə kompentensiyalarına** yiyələnməlidir:

- Uşaq, yeniyetmə və gənclərin fiziki,intelektual , əxlaqi, mənəvi,sosial inkişafı, şəxiyyətin sosiallaşması üçün psixoloji mühit yaratmaq bacarığına;
- Yüksək əqli qabiliyyətə, kreativ təfəkkürə malik, milli-mənəvi dəyərlərin daşıyıcıları olan şəxsiyyətlər formalaşdırmaq bacarığına;
- Təhsilalanların psixikasının harmonik inkişafının təmin olunmasını, eləcə də baş verə biləcək ləngimə, yayınma və pozuntuların qarşısının alınmasını, bunun üçün şagirdlərin fərdi-psixoloji xüsusiyyətlərini, psixi inkişafın qanunauyğunluqlarını, təlim-tərbiyə işinin psixoloji baxımdan daha səmərəli təşkilini təmin etməyi, psixi sağlamlığın qorunması üçün səriştəli psixoloji xidmət etmək bacarığına;
- Təhsilalanların koqnitiv, emosional, sosial inkişafı, şəxsiyyət formalaşması, eləcə də baş verə biləcək neqativ halların, narkotik maddələrin, spirtli içkilərin istifadəçisinə çevrilməyin, suisid hallarının, məktəbdən yayınma, aqressiya kimi davranışların vaxtında qarşısının alınması üçün psixoloji yardım göstərmək bacarığına;
- Təhsil subyektlərinin psixodiaqnostika,psixoprofilaktika, psixokonsultasiya və psixokorreksiyasını , təlim-tərbiyənin daha səmərəli təşkili üçün müəllim, şagird, tələbə və valideynlərin psixoloji biliklərlə maarifləndirilməsi bacarığına;

- İstedadlı şagirdləri müəyyənləşdirmək, onları psixi inkişaf və şəxsiyyətin spesifik xüsusiyyətlərinə görə diferensiallaşdırmaq, təlim-tərbiyə işini daha səmərəli təşkil etmək bacarığına;
- Pedaqoji kollektivin demokratik üsullarla idarə olunmasında müəssisə rəhbərləri ilə birgə fəaliyyət göstərmək, iyerarxiya qaydasında qarşılıqlı münasibətləri tənzimləmək, baş verə biləcək münaqişələrin yaranma səbəbləri və aradan qaldırılması yollarını müəyyənləşdirmək, onların qarşısının alınması bacarığına;

Müasir dövrdə təhsil müəssisəsində psixoloqun öz rolunu yerinə yetirməməsi, əksər hallarda müəllimlərin və bütövlükdə təhsil prosesinin həyata keçirilməsinin qarşısını alan bir növ maneə kimi çıxış etməsi barədə fikir olduqca geniş yayılmışdır. Müəllimlər psixoloqun səriştəsizliyindən, uşağa vaxtında psixoloji yardım göstərə bilməməsindən şikayət edirlər. Təhsil müəssisəsinin xüsusi bir sosial-psixoloji məkan olduğunu nəzərə alsaq, burada fəaliyyətinin xüsusi prioritetləri (üstünlükləri) olmalıdır. Belə hallar təhsil psixoloqunu qoxutmamalıdır.

## 2. Ümumi müddəalar

**2.1** Bakalavriat səviyyəsinin əsas **"050118 - Təhsildə sosial-psixoloji xidmət"** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza) ali tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatına uyğun hazırlanmışdır.Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarım, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübəkeçmə, işədüzəlmə və təhsiliniartırma imkanlarını müəyyənləşdirmək;
- Tələbələri və işə götürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

**2.2** Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və **"050118 - Təhsildə sosial-psixoloji xidmət"** ixtisası üzrə bakalavr hazırlığını həyata keçirən bütün ali təhsil

müəssisələri üçün məcburidir.

**2.3** Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

## 3. Məzunun kompetensiyaları

**3.1** ***Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:***

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına:
- İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərinə;
- Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyənetmə bacarıqlarına;
- İş yerində informasiya texnologiyalarından istifadə etmək qabiliyyətinə;
- Komanda da iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;
- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə; Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;
- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;
- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;
- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuru və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına.

***3.2 Təhsil proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:***

- Uşaq, yeniyetmə və gənclərin fiziki, intellektual, əxlaqi, mənəvi, sosial inkişafı, şəxsiyyətin sosiallaşması üçün psixoloji mühit yaratmaq bacarığına;
- Yüksək əqli qabiliyyətə, kreativ təfəkkürə malik, milli-mənəvi dəyərlərin

daşıyıcıları olan şəxsiyyətlər formalaşdırmaq bacarığına;

- Təhsilalanların psixikasının harmonik inkişafının təmin olunmasını, eləcə də baş verə biləcək ləngimə, yayınma və pozuntuların qarşısının alınmasını, bunun üçün şagirdlərin fərdi-psixoloji xüsusiyyətlərini, psixi inkişafın qanunauyğunluqlarını, təlim-tərbiyə işinin psixoloji baxımdan daha səmərəli təşkilini təmin etməyi, psixi sağlamlığın qorunması üçün səriştəli psixoloji xidmət etmək bacarığına;
- Təhsilalanların koqnitiv, emosional, sosial inkişafı, şəxsiyyətin formalaşması, eləcə də baş verə biləcək neqativ halların, narkotik maddələrin, spirtli içkilərin istifadəçisinə çevrilməyin, suisid hallarının, məktəbdən yayınma, aqressiya kimi davranışların vaxtında qarşısının alınması üçün psixoloji yardım göstərmək bacarığına;
- Təhsil subyektlərinin psixodiaqnostika, psixoprofilaktika, psixokonsultasiya və psixokorreksiyasını, təlim-tərbiyənin daha səmərəli təşkili üçün müəllim, şagird, tələbə və valideynlərin psixoloji biliklərlə maarifləndirilməsi bacarığına;
- İstedadlı şagirdləri müəyyənləşdirmək, onları psixi inkişaf və şəxsiyyətin spesifik xüsusiyyətlərinə görə diferensiallaşdırmaq, təlim-tərbiyə işini daha səmərəli təşkil etmək bacarığına;
- Pedaqoji kollektivin demokratik üsullarla idarə olunmasında müəssisə rəhbərləri ilə birgə fəaliyyət göstərmək, iyerarxiya qaydasında qarşılıqlı münasibətləri tənzimləmək, baş verə biləcək münaqişələrin yaranma səbəbləri və aradan qaldırılması yollarını müəyyənləşdirmək, onların qarşısının alınması bacarığına;
- Uşaq, yeniyetmə və gənclərin fiziki, intellektual, əxlaqi, mənəvi, sosial inkişafı, şəxsiyyətin sosiallaşması üçün psixoloji mühit yaratmaq bacarığına;
- Yüksək əqli qabiliyyətə, kreativ təfəkkürə malik, milli-mənəvi dəyərlərin daşıyıcıları olan şəxsiyyətlər formalaşdırmaq bacarığına;

- Təhsilalanların psixikasının harmonik inkişafının təmin olunmasını, eləcə də baş verə biləcək ləngimə, yayınma və pozuntuların qarşısının alınmasını, bunun üçün şagirdlərin fərdi-psixoloji xüsusiyyətlərini, psixi inkişafın qanunauyğunluqlarını, təlim-tərbiyə işinin psixoloji baxımdan daha səmərəli təşkilini təmin etməyi, psixi sağlamlığın qorunması üçün səriştəli psixoloji xidmət etmək bacarığına;
- Təhsilalanların koqnitiv, emosional, sosial inkişafı, şəxsiyyətin formalaşması, eləcə də baş verə biləcək neqativ halların, narkotik maddələrin, spirtli içkilərin istifadəçisinə çevrilməyin, suisid hallarının, məktəbdən yayınma, aqressiya kimi davranışların vaxtında qarşısının alınması üçün psixoloji yardım göstərmək bacarığına;

- Təhsil subyektlərinin psixodiaqnostika. psixoprofilaktika. psixokonsultasiya və psixokorreksiyasını, təlim-tərbiyənin daha səmərəli təşkili üçün müəllim, şagird, tələbə və valideynlərin psixoloji biliklərlə maarifləndirilməsi bacarığına;
- İstedadlı şagirdləri müəyyənləşdirmək, onları psixi inkişaf və şəxsiyyətin spesifik xüsusiyyətlərinə görə diferensiallaşdırmaq, təlim-tərbiyə işini daha səmərəli təşkil etmək bacarığına;
- Pedaqoji kollektivin demokratik üsullarla idarə olunmasında müəssisə rəhbərləri ilə birgə fəaliyyət göstərmək, iyerarxiya qaydasında qarşılıqlı münasibətləri tənzimləmək, baş verə biləcək münaqişələrin yaranma səbəbləri və aradan qaldırılması yollarını müəyyənləşdirmək, onların qarşısının alınması bacarığına.

## 3 Təhsil Proqramının strukturu

**4.1. “050118 - Təhsildə sosial-psixoloji xidmət”** ixtisası minimum 240 (4 il) AKTS kreditindən ibarətdir. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| **Fənlərin sayı** | **Fənnin adı** | **AKTS krediti** |
|---|---|---|
| **Ümumi fənlər** | | **30** |
| **1** | **Azərbaycan tarixi.**<br>Bu fənn Azərbaycanın dövlətçilik ənənələrinin yaranması, formalaşması və inkişafını sistemli şəkildə. xronoloji ardıcıllıqla öyrənir, müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolunu təhlil və tədqiq edir. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil edilir. | **5** |
| **2** | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya.**<br>Bu fənn çərçivəsində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir. | **4** |
| **3** | **Xarici dildə işgüzar və akademik kommunikasiya.**<br>Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir. | **15** |

<table>
<tr><td>4</td><td colspan="2">Seçmə fənlər (Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər)</td></tr>
<tr><td rowspan="4">4.1</td><td>Fəlsəfə<br>Bu fənn fəlsəfənin yaranması və inkişafının əsas mərhələləri, varlıq haqqında fəlsəfi təlim, materiya anlayışı. Müasir elm materiyanın quruluşu haqqında, hərəkət. Məkan və zaman, dialektikanın əsas qanunları və kateqoriyaları, fəlsəfədə şüur problemi, insanın fəlsəfi anlamı, təbiət və cəmiyyət, idrak və onun strukturu, elmi idrak və onun metodları, yaradıcılıq və intuisiya, elmin etikası, sosial idrakın spesifikliyi. Cəmiyyət özüinkişaf edən sistemdir, ictimai həyatın əsas sferaları. İqtisadi həyatın fəlsəfi səpkisi, cəmiyyətin sosial sferası, siyasi həyatın fəlsəfi təhlili, cəmiyyətin mənəvi həyatı, tarixi prosesin subyektləri və hərəkətverici qüvvələri, mədəniyyət və sivilizasiya, şəxsiyyət və sosial dəyərlər təhlil və tədqiq edilir.</td><td rowspan="4">3</td></tr>
<tr><td>Sosiologiya<br>Bu fənn sosial hadisələri və prosesləri bütöv sosial sistem olan cəmiyyət kontekstində nəzərdən keçirir, sosiologiyanın strukturunu, predmetini, metodologiyasını, metodlarının xüsusiyyətlərini, müasir sosioloji biliyin nəzəri səviyyələrini, eləcə də xüsusi sosioloji konsepsiyaların rəngarəngliyini təhlil və tədqiq edir. Bu sahədə elmi axtarışların mümkün perspektivlərini öyrənir.</td></tr>
<tr><td>Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları<br>Azərbaycan Respublikasının Konstitisiyası, Azərbaycan dövlətinin konstitisiya statusu, Azərbaycan Respublikası vətəndaşlığı, insan və vətəndaş hüquqları, azadlıqları və vəzifələri, dövlət hakimiyyəti, Konstitusiya əsasında hakimiyyətin bölünməsi, qanunvericilik hakimiyyəti, icra hakimiyyəti və onun orqanları, məhkəmə hakimiyyəti, onun quruluşu və sistemi, əmək hüququnun əsasları, mülki hüququn əsasları, ailə hüququnun əsasları, cinayət hüququnun əsasları.</td></tr>
<tr><td>Məntiq<br>Məntiq fənni insana imkanları obyektiv qiymətləndirməyə, tez və düzgün qərar verməyə, fikirləri aydın şəkIdə ifadə etməyə, həmsöhbəti düzgün arqumentlərdən istifadə edərək inandırmağa, qeyri-müəyyən vəziyyətlərdən uzaq olmağa kömək edir. Bu fənn məntiqi düşünmə qabiliyyətini qiymətləndirir, məntiqi qanunauyğunluqları qavramaq və tətbiq etmək bacarığını ölçür və müxtəlif sahələrdə</td></tr>
</table>

| | | |
|---|---|---|
| | **Etika və estetika**<br>Bu fənndə etik və estetik fikir, onun təkamülünün əsas mərhələləri: Qədim Hindistan və Çində etik fikir, antik dövrdə etik fikir, orta əsrlər və yeni etik fikir. Azərbaycanda etik fikir, islam etikası, əxlaqın mahiyyəti və əsas funksiyaları, əxlaq və ictimai şüurun digər formaları, əxlaqi şüur və fəaliyyət, etikanın əsas kateqoriyaları: xeyir və şər, borc və vicdan, şərəf və ləyaqət, xoşbəxtlik və həyatın mənası, tətbiqi etika və peşə etikası haqqında məlumat verilir. | |
| **4.2** | **İnformasiyanın idarə edilməsi**<br>İnformasiyanın idarə edilməsi fənni İKT baza kompyuter bilikləri fənninin davamı olaraq tədris edilir. Fənnin tədrisində əsas məqsəd - İKT baza kompüter bilikləri fənnində öyrənilənlərin tətbiqi ilə tanış olmaq, informatlaşmış cəmiyyət dövründə müasir informasiya texnologiyalarının tətbiq sahələrini öyrənmək və onları düzgün tətbiq edə bilməkdir. Belə ki, burada dövlət idarəçiliyində, iqtisadiyyatda, bank və turizm sektorunda, biznes sahəsində informasiya texnologiyalarının rolu, həmçinin bulud texnologiyaları, onun tətbiqləri və modelləri haqqında məlumat verilir.<br>**Politologiya**<br>Politologiya siyasət haqqında elmdir. Siyasi fikrin inkişafının əsas mərhələləri. Azərbaycanın siyasi fikrinin inkişaf mərhələləri. Siyasət cəmiyyətin tənzimləyici, təşkiledici və nəzarətedici funksiyasıdır. Siyasi hakimiyyət və onun daşıyıcıları. Siyasi elita. Siyasi sistem nəzəriyyəsi. Siyasi rejimlər. Siyasi partiyalar və partiya sistemləri. Demokrasiya: əsas təsisatlar. Parlament başlıca demokratik təsisatdır.Seçki sistemləri. Dövlət başlıca siyasi təsisatdır. Siyasi şüur və siyasi ideologiya.Siyasi mədəniyyət.Vətəndaş cəmiyyəti. Dünya siyasəti nəzəriyyəsi və beynəlxalq siyasi münasibətlər. Modernləşdirmə konsepsiyası siyasi inkişafın nəzəri modeli kimi. Siyasi texnologiyalar. Siyasi tədqiqatlar və siyasi təhlil. Siyasi qərarların qəbulu. Beynəlxalq münasibətlərin politologiyası.Beynəlxalq siyasətin qlobal problemləri . Dövlətin xarici siyasət fəaliyyəti.<br>**Sahibkarlığın əsasları və biznesə giriş**<br>Sahibkarlıq mühiti və rəqabəti, kiçik və orta sahibkarlıq, sahibkarlıq fəaliyyətində vergiqoyma, qiymət siyasəti, menecment və marketinq sistemi. Biznesin təşkilati-hüquqi formaları. GZİT təhlil, sahibkarlığın xarici və daxili mühiti. Kommersiya, | **3** |

| | | |
|---|---|---|
| | maliyyə, məsləhət, istehsal sahibkarlığı. Uçot, yenidən bölüşdürmə, stimullaşdırıcı, balanslaşdırıcı və istehsalın yerləşdirilməsi. | |
| **İxtisas fənləri** | | **120** |
| **5.** | **Pedaqogika**<br>Pedaqogika fənnin tədrisində tələbələrə pedaqogika elminin təşəkkülü və inkişaf tarixi haqqında məlumat verilir, təlim, tərbiyə, təhsil, inkişaf anlayışlarının mahiyyəti izah olunur. Pedaqogikanın mahiyyəti, əsasanlayışları, vəzifələri, tədqiqat metodları, əsas mənbələri və qolları, şəxsiyyət, şəxsiyyətin formalaşmasına təsir göstərən əsas amillər, eyni zamanda təlimin üsulları, prinsipləri, təşkili formaları haqqında məlumat verilir. Bununla yanaşı təlim prosesinin idraki və psixolojiəsasları, təlim prosesinin prinsipləri, metodları və təşkili formalarının, yeni təlim texnologiyalarının əsas mahiyyəti izah olunur, tərbiyə prosesinin xüsusiyyətlərinə aid müasir cəmiyyət quruculuğu ilə bağlı məlumatlar çatdırılır, məktəbdə metodik işlərin və məktəbşünaslığın pedaqoji əsasları təsvir edilir. | 9 |
| **6.** | **Psixologiyanın əsasları**<br>Bu fənn daxilində psixologiyanın predmeti, psixikanın filogenezdə inkişaf istiqamətləri, psixi inkiasın təkamülü, psixologiyanın digər elmlər sistemində yeri, inkişaf tarixi, tədqiqat metodlarını, psixi hadisələrin təzahürləri, fəaliyyətin psixoloji məsələləri, tələbat və motivlərin psixoloji problemlərini, emosiya və hisslərin psixologiyası, ünsiyyət psixologiyasının əsas məsələlərini, şəxsiyyətin formalaşma mexanizminin psixoloji məsələləri, o cümlədən insanın fərdi-psixoloji xüsusiy-yətləri-temperament, xarakter, qabiiyyətlər, emosional-iradi proseslər və müasir psixologiyanın müxtəlif istiqamətli aktual problemləri öyrədilir. | 7 |
| **7.** | **Təhsildə İKT**<br>Bu fənn İKT vasitələrindən istifadənin müasir üsul və metodlarına; hesablama texnikası bazasında fəaliyyət göstərən multimediya texnologiyalarına, məlumatın daxil edilməsinə, toplanmasına, emalına, ötürülməsinə diqqət yetirir. Elektron tədris resursları və elektron lövhənin təlim prosesində İstifadə edilməsinə, innovasiyalann idarəedilməsinə, distant təhsil, videokonfransların təşkili, aparat, proqram vasitələri və internetdə axtarış sistemləri ilə işləməyi diqqətə çatdırır. | 5 |
| **8.** | **Multikulturalizm** | **3** |

| | | |
|---|---|---|
| | Bu fənn multikulturalizm haqqında ümumi anlayışları, onun inkişaf mərhələlərini, bu sahədə əsas nəzəriyyələrin xüsusiyyətlərini, cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunması istiqamətində dövlətin apardığı siyasəti öyrədir. Azərbaycan Respublikasının mıltukulturalizm siyasətinin, sosial-mədəni proseslərin mahiyyətini, onun xüsusiyyətlərini və bu siyasətin ölkədə uğurla həyata keçirilməsinin səbəblərini təhlil edir. | |
| **9.** | **Eksperimental psixologiya**<br>Eksperimental psixologiya fənni tətbiqi elm sahəsi olmaqla eksperimental üsullarla aparılan bütün növ elmi və psixoloji tədqiqatların ümumi istiqamətlərini öyrədir._Eksperimental psixologiya psixologiyanın xüsusi bir növü deyil , psixologiya elminin ən müxtəlif sahələrini əhatə edən ümumi metodoloji yanaşmadır. Bu kursda eksperimental psixologiyanın təşəkkül və inkişafının qısa tarixi-psixoloji səciyyəsi, psixologiya sahəsində eksperimental tədqiqatların növləri, mərhələləri, tədqiqatın planlaşdırılması və aparılması, eksperimental tədqiqatın nəticələrinin işlənməsi, ümumiləşdirilməsi və təhlili təqdim olunur. | **5** |
| **10.** | **Psixi sağlamlıq**<br>Bu fənn çərçivəsində tələbələr psixi sağlamlığın obyektini, predmetini, məqsədini, metodlarını, əsas istiqamətlərini, əsas anlayışlarını, problemlərini və bu problemlərin həlli yollarını öyrənirlər. Psixi sağlamlıq-insanın psixi durumu, onun davranışlarının tənzimlənməsi, eyni zamanda sosial və bioloji amillərin təsiri ilə psixi sağlamlığın düzgün formalaşması ilə xarakterizə olunur. Bu fənn daxilində psixi sağlamlığın insanın özünə və ətrafdakı insanlara olan münasibətinin çalaraları, ümumilikdə bütün həyatı boyu müxtəlif hadisələrə, sosial və iqtisadi çətinliklərə qarşı münasibətinin xüsusiyyətləri inikas olunur. Psixi sağlamlıq insanın sosial-iqtisadi vəziyyəti ilə yanaşı onun fiziki sağlamlığı ilə sıx bağlıdır və tədris zamanı bu məsələ ön plana çəkilməlidir. | **5** |
| **11**. | **Sosial psixologiya**<br>Sosial psixologiya fənni sosial-psixoloji təfəkkürün əmələ gəlməsi, inkişafı tarixini metodiki və metodoloji məsələləri, şəxsiyyətin yönəlişləri, sosializasiyanın sosial-psixoloji effektlərini, qrup nəzəriyyəsinin ümumi məsələlərini, ünsiyyətin sosial-psixologiyasını, ünsiyyət prosesində psixoloji təsir məsələlərini öyrənir. Bu kurs | **5** |

| | | |
|---|---|---|
| | daxilində sosial psixologiyanın tarixi və nəzəriyyəsi, elmin formalaşmasının metdoloji əsasları,isanların ünsiyyət və qarşılıqlı münasibətlərinin sosial-psixoloji qanunlarının təhlili, şəxsiyyət problemləri, peşəkar əhəmiyyətli şəxsiyyət əlamətlərinin sistemləşdirilməsi, sabit, müsbət münasibətlərin formlaşdırlması yolları, tətbiqi tədqiqatın əsas istiqamətlərinin öyrənilməsi təqdim olunur. Bununla yanaşı bu fənn şəxsiyyətdaxili (emosiyalar, sosial idrak, yönəliklik, “mən” anlayışı) və şəxsiyyətlərlərarası (digərlərinə kömək etmə, aqressiya, qərəzli münasibət və ayrıseçkilik, cəlb etmə, qrup prosesləri və qruplar arası münasibətlər) səviyyələrdə baş verən prosesləri təhlil edir. | |
| 12. | **Sosial pedaqogika**<br>Bu fənn çərçivəsində gənc nəslin tərbiyəsi, uşaqların təlim-tərbiyə məsələləri,uşaqların tərbiyə, təhsil və təliminin başlıca məqsədləri, təhsilin məzmunu, qanunauyğunluqları və təşkilinin səmərəli yollarının müəyyənləşdirilməsi və s. kimi məsələlər sosial baxımdan öyrənilir. Bir sözlə pedaqogika sosial kontekstdən nəzərədən keçirilir. Sosial pedaqogika bir elm sahəsi kimi öz-özlüyündə sosial və pedaqoji hadisələri öyrənmir, onun fenomenologiyasını sosial-pedaqoji hadisələr təşkil edir. Bununla yanaşı bu fənn sosial pedaqogikanın nəzəri-metodoloji məsələlərini, kateqoriyalarını, qanunauyğunluqlarını, şəxsiyyət problemini, insanları əhatə edən sosial və təbii mühiti, orada baş verən dəyişikliklər və inkişafı və onların təsiri, şəxsiyyətin formalaşma prosesinin amillərini, təhsil və tərbiyənin şəxsiyyətin sosiallaşmasında rolunu, uşaqların sosial müdafiəsi, müxtəlif tədris və tərbiyə müəssisələrində ailə və uşaq kollektivlərinin sosial fəaliyyətinin nəzəriyyə və metodikasını əhatə edir. | **S** |
| 13. | **Psixoanaliz**<br>Psixoanaliz bir elm kimi Ziqmund Freyd tərəfindən yaradılmış psixoloji nəzəriyyə, həmçinin bu nəzəriyyəyə əsaslanan psixi pozuntuların müalicəsi üsullarını öyrənir. Bu elm əhatəsində insanın davranışı , təcrübəsi və idrakı daxili irrasional təhriklərin vasitəsilə idarə olunması məsələləri, psixoloji müdafiə mexanimzləri, şəxsiyyətin psixoanalitik strukturu, reallığın şüurlu qavranılması ilə şüursuz (repressiya edilmiş) qavrayış arasındakı ziddiyyətlər, nevrotik xarakterli əlamətlərinin yaranması, nevrozlar , qorxular və digər psixo-emosional pozuntuların psixoanalitik mexanizmləri, psixoanaltik medaxilənin prosedur qaydaları | **5** |

| | | |
|---|---|---|
| | öyrənilir. Bu fənn çərçivəsində tələbələr psixoanalizin predmetini, inkişaf tarixini, psixologiyanın inkişafında psixoanalizin rolunu, neofreydizmi, şəxsiyyətin inkişafına dair psixoanalitik nəzəriyyələri, psixoanalizdə psixikanın strukturunu. təhtəlşüur probleminin psixoloji mahiyyətini, psixoanalitik terapiyanı və bu sahəyə aid digər aktual mövzuları öyrənirlər. | |
| **14.** | **Pedaqoji psixologiya**<br>Bu elm sahəsi təlim və tərbiyə prosesinin bu və ya digər mərhələsində insan şəxsiyyətinin necə dəyişdiyini şərh edir, lazım gəldikdə inkişafın düzgün istiqamətlənməsi üçün metodlar işləyib hazırlayır. Pedaqoji psixologiya tələbələrdə ümumi nəzəri dünyagörüşün formalaşdırılmasında, təlim-tərbiyə psixologiyası sahəsində tədqiqatlar aparılmasında, eləcə də praktik psixologiyaya marağın yaranmasında müstəsna əhəmiyyət kəsb edir. Pedaqoji psixologiya kursunun tədrisinin əsas məqsədi tələbələrdə psixi inkişafın ahəngdarlığını təmin edən əsas mexanizmlərin və təlim-tərbiyə prosesində şəxsiyyətinin formalaşmasının başlıca şərtlərini müəyyənləşdirməkdən, təhsil prosesinin onun subyektlərinə təsirinin mexanizmini aydınlaşdırmaqdan ibarətdir. | **5** |
| **15.** | **Klinik psixologiya**<br>Klinik psixologiya psixi hadisələri xəstəliklərlə əlaqəsi nöqteyi-nəzərindən öyrənən psixologiyanın bir sahəsidir. Klinik psixologiya sahəsi psixi sağlamlığın diaqnostikasını, psixofizioloji problemləri anlamaq üçün elmi tədqiqatların təşkili və aparılmasını, psixoloji korreksiyanın (psixoterapiya) inkişafı, həyata keçirilməsi və qiymətləndirilməsini əhatə edir. Klinik psixologiya psixoterapevtik üsullar, o cümlədən konsultasiya , fərdi psixoterapiya, ailə psixoterapiyası, ailə məsləhəti və fiziki sağlamlıq pozuntuları ilə bağlı psixoloji problemlər yaşayan insanlara müxtəlif dəstək formaları vasitəsilə mövcud psixoloji problemlərin aradan qaldırılması yollarını öyrədir. | **5** |
| **16.** | **Psixologiyanın tədrisi metodikası**<br>Psixologiyanın tədrisi metodikası təhsil prosesində psixologiya dərslərində psixologiyanın tədrisinin bir sıra metod və üsullarını öyrənən, strukturlaşdıran və təşkil edən bir fəndir. Bu fənn çərçivəsində tələbələrə psixoloji fənlərin tədrisi metodologiyasının nəzəri əsaslarının təqdimatı, tədris olunan kateqoriyanın xüsusiy- | **5** |

| | | |
|---|---|---|
| | yətlərinin nəzərə alınması, məktəblilərin, tələbələrin, müəllimlərin, valideynlərin psixoloji xüsusiyyətlərinin müəyyən edilməsi, tələbələrin peşəkar özünüdərki, psixologiya müəlliminin fəaliyyətinin özünütəşkili mədəniyyətinin formalaşdırılması və s.kimi məsələlər öyrədilir. | |
| **17.** | **İnklüziv təhsil**<br>İnklüziv təhsil bir elm kimi xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilə çıxışını təmin edən, bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşma baxımından hamı üçün təhsilin mövcudluğunu nəzərdə tutan ümumi təhsilin inkişafı prosesini öyrədir. Bu fənn təlim metodlarını bilərək təlimin diferensiallaşdırılması yollarını izah edir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların adaptasiya çətinliklərini nəzərə alaraq sosial adaptasiyası,inteqrasiyası və sosial reabilitasiyası məsələlərini araşdırır. | **5** |
| **18.** | **Təhsildə sosial-psixoloji xidmət və psixoloji praktikum**<br>Təhsildə sosial-psixoloji xidmət və psixoloji praktikum fənni təhsil subyektlərinə psixoloji dəstəyin göstərilməsi, tələbələrin peşəkar və şəxsi inkişafının təşviqi, təhsil müəssiəsində sosial-psixoloji iqlimin yaradılması yolları, adapatasiyanın təşviqi; tələbələrin deviant davranışının qarşısının alınmasına yönəlmiş tədbirlər sisteminin işlənib hazırlanması, tələbələrin və məzunların müasir əmək bazarına uyğunlaşma səviyyəsinin artırılması, korporativ mədəniyyətin gücləndirilməsində institut rəhbərliyinə köməklik, psixologiya elminin nailiyyətlərinin yayılmasının və təhsil praktikasında tətbiqinin təşviqi və və s. kimi məsələləri öyrədir. Bu fənn çərçivəsində tələbələrə psixoloji xidmətin mahiyyətini, psixoloji xidmətin nəzəri, praktik məsələlərini, istiqamətlərini, psixoloji xidmətin təşkili məsələlərini, məktəblilərlə aparılan psixoloji xidmətin mahiyyətini, Azərbaycanda psixoloji xidmətin yaranması, müasir vəziyyəti və bu sahəyə dair digər məlumatları təhliletmə bacarığının aşılanmasına xüsusi diqqət yetirilir**.** | **5** |
| **19.** | **Psixodiaqnostika və psixokonsultasiya**<br>Bu fənn çərçivəsində tələbələrə psixodiaqnostikanın mahiyyətini, məqsədini, psixodiaqnostik metodların tətbiqi xüsusiyyətlərini, testlərin təsnifatını, testlərin tətbiqinə olan tələbləri, psixokonsultasiyanın məqsədini, psixodiaqnostika, eləcə də psixokonsultasiya zamanı praktik psixoloqun peşəkarlıq göstəricilərini və bu sahəyə dair digər məlumatları; psixoloji təcrübəyə tətbiq elmə bacarığının aşılanmasına | **5** |

| | | |
|---|---|---|
| | xüsusi diqqət yetirilməlidir. | |
| **20.** | **Uşaq anatomiyası, fiziologiyası və gigiyenası.**<br>Bu fənn fərdi inkişaf dövründə insan orqanizmin quruluş və funksiyasını, yaşla əlaqədar olaraq, ayrı-ayrı orqan və sistemlərdə baş verən dəyişikliklərin qanunauyğunluqlarını təsvir edir. | **5** |
| **21.** | **Təhsil sisteminin və layihələrin idarə edilməsi**<br>Bu fənn çərçivəsində tələbələrə təhsilin idarə olunmasının elmi-nəzəri əsasları, menecmentlə idarəetmənin ümumi və fərqli cəhətləri, "Elektron məktəb " idarəetmə modeli, təhsil müəssisələrinin infrastrukturunun İKT-dən istifadə imkanları, təhsildə STEM yanaşmasının tətbiqi qaydaları, təhsildə innovasiya üzrə dəstəklənən pilot layihələr, inkişaf və innovasiya üzrə qrant müsabiqəsi layihələri, təhsildə keyfiyyətin idarə olunması layihələri, pedaqoq peşəkarlığının idarəedilməsi yolları, "təhsil-elm-istehsal" əlaqələrinin səmərəlliliyi, eləcə də fənnə aid digər aktual məsələlər öyrədilir. | •<br>**5** |
| **22.** | **Ailə və gender psixologiyası**<br>Ailə və gender psixologiyası özünü psixoloji biliklərin müstəqil sahəsi kimi yenicə təsdiq etməyə başlayan tamamilə yeni elmi istiqamətdir. Bu daxilində psixologiyada ortaya çıxan müxtəlif gender problemlərinin öyrənilməsi nəzərdə tutulmuşdur. Fənnin əhatə dairəsi ailə və gender psixologiyasının predmeti, vəzifələri, tədqiqat metodları, inkişaf tarixi, ailə və nikahın meydana gəlməsinin tarixi şərtləri, ailədaxili münasibətlərdə genderin rolu və onun bir elm inkişafı, ailənin funksiya-ları, strukturu və tipləri, ailədə ər- arvad münasibətlərinin formalaşmasının psixoloji mexanizmləri, müxtəlif nəzəriyyələrdə gender məsələləri, gender rollarının formalaşmasının sosial və psixoloji şərtləri, uşaq və böyük yaşlarda gender sosializasiyası, ailədaxili münasibətlər və uşaq şəxsiyyətinin inkişafı, müasir dövrdə ailə və genderlə bağlı digər aktual problemləri və bu sahədə əldə etdiklər bilikləri təcrübəyə tətbiq etməyin yollarını öyrənirlər. | **5** |
| **23.** | **Şəxsiyyət və fəaliyyət psixologiyası**<br>"Şəxsiyyət və fəaliyyət psixologiyası" fənni şəxsiyyəti və fəaliyyəti, eləcə də şəx-siyyətin fəaliyyətdə və ünsiyyətdə inkişafı məsələlərini öyrənir. Burada şəxsiyyətin və fəaliyyətin ayrıca götürülmüş psixoloji məzmunu, onların qarşılıqlı əlaqəsi, | **5** |

| | | |
|---|---|---|
| | müxtəlif proseslərdə şəxsiyyət keyfiyyətlərinin təzahürü, həmçinin fəaliyyətin strukturu, onun şəxsiyyətlə bağlı cəhətləri öyrənir. Əsas diqqət şəxsiyyətin və onun məzmununda özünü göstərən psixi fəaliyyətin və proseslərin ardıcıl mənzərəsini yaratmağa yönəlir. Bu fənn çərçivəsində tələbələr şəxsiyyət psixologiyasında irəli sürülən klassik və müasir nəzəriyyələri, şəxsiyyətlə fəaliyyətin qarşılıqlı asılılığının nəzəri-psixoloji problemlərini, şəxsiyyətin kateqorial sistemini, şəxsiyyətin fərdi inkişafının şərait və amillərini, fəaliyyətin psixogenetik problemlərinə dair məlumatları sadə praktik tapşırıqların həllində ifadə etməyi, eləcə də bu sahəyə aid digər nəzəri və praklik-təibiqi problemləri öyrənirlər. | |
| **24.** | **İnkişaf və yaş psixologiyası**<br>İnkişaf və yaş psixologiyası müasir psixologiyanın əsas sahələrindən biri olub insan psixikasının inkişaf dinamikasını, psixi inkişafın zəruri şərtləri, hərəkətverici qüvvələrini, şəxsiyyətin psixi proses və psixi xassələrinin ontogenezinin inkişaf xüsusiyyətlərini, yaş dövrlərinin çoxcəhətli və ziddiyyətli olan dialektik mahiyyətini, hər bir yaş dövrünə xas olan psixoloji xüsusiyyətləri öyrənir. Uşağın inkişafı ilə əlaqədar bütün məsələlər sistem halında şərh edir. Bu kurs çərçivəsində inkişaf və yaş psixologiyası ilə bağlı təsəvvürlərin formalaşmaşdırılması məsələləri, müxtəlif yaş dövrləri və onarın xüsusiyyətləri, uşaqda zəruri keyfiyyətləri tərbiyə etmək üçün onun psixi inkişaf xüsusiyyətlərinin öyrənilməsini, müxtəlif yaş mərhələlərində dinamikanın fərqli yönümü kimi məsələlər öz əksini tapır. | **5** |
| **25.** | **Psixofiziologiya.**<br>Psixofiziologiya subyektiv hadisələrin, vəziyyətlərin və fərdi fərqlərin fizioloji mexanizmlərini öyrənən bir elmdir. Psixi proseslərin fizioloji mexanizmlərinin sistemli, sinir, sinaptik və molekulyar səviyyədə öyrənilməsi psixofiziologiyanın əsas məsələlərindəndir. Bu fənn çərçivəsində tələbəyə fənnin predmeti, vəzifələri, inkişaf tarixi, sinir sistemi və onun (ipləri psixofıziologiyanın metodları haqqında məlumatlara yiyələnir. Ayrı-ayrı analizatorlar və onların xüsusiyyətləri, duyğuların yaranmasındakı rolu haqqında məlumat əldə edir. Baş beyin və onun fəaliyyətini təhlil etməyi öyrənir**.** | **5** |
| **26.** | **Uşaq psixologiyası** | **5** |

| | | |
|---|---|---|
| | Bu elm uşaq psixologiyasının yarnamsının inkişaf tarixi, əsas sahələrini, tədqiqat prinsipləri və metodlarını, həmçinin uşaq psixologiyanın bölmələri, uşaq psixologiyanın digər elmlərlə qaşılıqlı əlaqəsi, psixi inkişafın qanunauyğunluqları , psixi inkişafın zəruri şərtləri, psixi inkişaf və ünsiyyət, ailədaxili və ailədənkənar ünsiyyət, pedaqoji ünsiyyət kimi məsələləri öyrənir. Bu elm daxilində psixi inkişaf və təlim, psixi inkişafla bağlı psixoloqlarının fikirləri, psixi inkişafın akselerasiyası, urbanizasiya ilə əlaqədar fərziyyələr, yaş böhranlarının təhlili nəzərdə tutulur.Eləcə də çağalıq dövrünün mərhələlər üzrə inkişafı, körpənin fiziki və psixi inkişafı, körpənin cisim və hadisələrlə ünsiyyəti, körpələrdə əşyavi və təsviri fəaliyyət, körpənin nitq inkişafı, körpəlik dövründə diqqətin və hafizənin inkişafı, körpəlik dövründə təfəkkürün inkişafı, körpəlik dövründə hislərin inkişafı, körpəlik dövründə yaş böhranı kimi məsələlərin təhlili nəzərdə tutulur. Bu fənn məktəbəqədər yaş dövrünün psixoloji xüsusiyyətləri,uşaqların fiziki inkişafı, uşaqlarda motivasiya sahəsinin formalaşması, məktəbəqədər yaş dövründə uşaq şəxsiyyətinin inkişafı, məktəbəqədər yaş dövründə hisslərin və iradənin inkişaf xüsusiyyətləri, məktəbəqədər yaş dövründə nitqin inkişaf xüsusiyyətləri, məktəbəqədər yaş dövründə diqqətin, hafizənin, təfəkkürün, təxəyyülün inkişaf xüsusiyyətləri, uşağın məktəb təliminə psixoloji hazırlığı, kiçik məktəblilərin psixoloji xüsusiyyətləri, psixi və fizki inkişaf istiqamətləri kimi məsələlərin öyrənilməsi ön plana çəklir. | |
| **27.** | **Mülki müdafiə və ilkin tibbi yardım.**<br>Bu fənn fövqəladə hadisələrin qarşısının alınması, onların nəticələrinin aradan qaldırılması, kütləvi qırğın silahları, nüvə silahı, nüvə silahının tətbiqi və nəticələri, nüvə silahının zədələyici amilləri, radioaktiv çirklənmə, bioloji silahlardan qorunma üsulları, karantin tədbirləri, dinc və müharibə dövrimdə əhalinin mühafizəsinin xüsusiyyətləri, fərdi mühafizə vasitələri, qəza və təbii fəlakətlər zamanı xilasetmə işlərinin təşkili və yerinə yetirilməsi qaydaları, kimyəvi silahlar tətbiq edilərkən davranış və fəaliyyət qaydaları, müxtəlif zədələnmə ocaqlarında və təbii fəlakət rayonlarında ilk tibbi yardım göstərilməsində sanitar drıjinalarının təşkil olunması haqqında məlumatlar öyrədir. | **6** |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər**<br>Burada olan fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada müəyyən | **60** |

| | | |
|---|---|---|
| | edilir və həmin ixtisasın tədris planında əksini tapır. | |
| **28.** | **Psixologiya tarixi**<br>Psixologiya tarixi psixologiyanın müəyyən sahələri və problemləri üzrə bilikləri sintez edən bir neçə mürəkkəb fənlərdən biridir. Bir tərəfdən onun məzmunu digər kurslardan əldə edilən biliklərə ümumi, inkişaf, sosial psixologiya və s. əsaslanır, digər tərəfdən, psixologiya tarixi bu bilikləri bir sistemə gətirməyə, psixologiyanın formalaşmasının məntiqini, onun predmetinin dəyişdirilməsinin səbəblərini, aparıcı problemləri başa düşməyə imkan verir. Bu fənn çərçivəsində psixologiya tarixinin əsas metodu, onun nəzəri yanaşmaları, ondan istifadə etməklə keçmişin elmi sistemləri və psixoloji biliklərin əldə edilməsinin, əsaslandırılması və sistemləşdiril-məsi təsvir edilir və müasir psixologiyanın nailiyyətləri ilə bağlı tənqidi məsələlər təhlil edilir. | **5** |
| | **Fəlsəfə**<br>Bu fənn fəlsəfənin yaranması və inkişafının əsas mərhələləri, varlıq haqqında fəlsəfi təlim, materiya anlayışı. Müasir elm materiyanın quruluşu haqqında, hərəkət. Məkan və zaman, dialektikanın əsas qanunları və kateqoriyaları, fəlsəfədə şüur problemi, insanın fəlsəfi anlamı, təbiət və cəmiyyət, idrak və onun strukturu, elmi idrak və onun metodları, yaradıcılıq və intuisiya, elmin etikası, sosial idrakın spesifikliyi. Cəmiyyət özüinkişaf edən sistemdir, ictimai həyatın əsas sferaları. İqtisadi həyatın fəlsəfi səpkisi, cəmiyyətin sosial sferası, siyasi həyatın fəlsəfi təhlili, cəmiyyətin mənəvi həyatı, tarixi prosesin subyektləri və hərəkətverici qüvvələri, mədəniyyət və sivilizasiya, şəxsiyyət və sosial dəyərlər təhlil və tədqiq edilir. | |
| **29.** | **Türk xalqların ümumi mental dəyərləri**<br>Türk xalqlarının tarixində baş verən bütün mühüm hadisələr folklorda bədiiləşdiyi kimi, bizim milli kimliyimizin özünəməxsus cəhətləri də folklorumuzda əlvan bədii forma və şəkillərdə inikas olunmuşdur Türk xalqlarının milli menatliteti məxsus olduğu etnosların milli düşüncəsinin özünəməxsusuluğunu müəyyənləşdirən amil kimi mədəniyyətin müxtəlif tip və formalarında, o cümlədən, folklor yaradıcılığında geniş şəkildə təzahür edir. Xalqın ənənəvi mədəniyyətinin istənilən növünü əsas | **4** |

| | | |
|---|---|---|
| | götürməklə milli mentalitet sistemini araşdırmaq mümkündür. Türk xalqlarının milli mentalitetinin bir sistem kimi öyrənilə biləcəyi ən köklü və etibarlı qaynaqlardan birini folklor təşkil edir. Folklor xalqın milli kimliyinin bütün təzahür formalarını özündə əks etdirən düşüncə və mətn sistemi kimi milli mentalitet sisteminin bərpası üçün zəngin və əvəzolunmaz material verir. Türk xalqları zəngin bədii təfəkkür tarixinə malikdir. Ədəbiyyat tariximizin bəşər mədəniyyətindəki möhtəşəm yerini ilk növbədə folklorumuzun zənginliyi və möhtəşəmliyi şərtləndirir. | |
| | **Azərbaycan mentalitetinin əsasları**<br>Milli mentalitet etnosun milli düşüncəsinin özünəməxsusuluğunu müəyyənləşdirən amil kimi mədəniyyətin müxtəlif tip və formalarında, o cümlədən, folklor yaradıcılığında geniş şəkildə təzahür edir. Xalqın ənənəvi mədəniyyətinin istənilən növünü əsas götürməklə milli mentalitet sistemini araşdırmaq mümkündür. Azərbaycan xalqının milli mentalitetinin bir sistem kimi öyrənilə biləcəyi ən köklü və etibarlı qaynaqlardan birini folklor təşkil edir. Folklor xalqın milli kimliyinin bütün təzahür formalarını özündə əks etdirən düşüncə və mətn sistemi kimi milli mentalitet sisteminin bərpası üçün zəngin və əvəzolunmaz material verir. Azərbaycan xalqı zəngin bədii təfəkkür tarixinə malikdir. Ədəbiyyat tariximizin bəşər mədəniyyətindəki möhtəşəm yerini ilk növbədə folklorumuzun zənginliyi və möhtəşəmliyi şərtləndirir. Folklorumuz milli tariximizə yoldaşlıq etmiş, Azərbaycan xalqının tarixində baş verən bütün mühüm hadisələr folklorda bədiiləşdiyi kimi, bizim milli kimliyimizin özünəməxsus cəhətləri də folklorumuzda əlvan bədii forma və şəkillərdə inikas olunmuşdur. | |
| **30.** | **Mərkəzi sinir sisteminin (MSS) anatomiyası və fiziologiyası**<br>Mərkəzi sinir sisteminin anatomisyası tədris olunarkən tələbələrə hüceyrələr, toxumlar və ayrı-ayrı orqanlar arasında qarşılıqlı əlaqələrin yaradılmasının orqanizmin tamlığını təmin etməsində rolu təqdim olunur. Tələbələr mərkəzi sinir sisteminin orqanizmdə gedən prosesləri tənzimləyərək və orqanların işinə istiqamət verərək orqanizmin bütün fəaliyyətlərini nəzarət altında saxlamasını öyrənirlər. MSS-nin funksional vəziyyətinin orqanizmlə xarici mühit arasındakı əlaqəyə təsiri araşdırılır. MSS afferent impulsları qəbul edir, analiz və sintez edir, efferent impulsları formalaşdırır və onların təsiri ilə orqanların fəaliyyətini bu və ya digər istiqamətə yönəldir. O, həmçinin mühitin dəyişikliklərinə və təsirlərinə qarşı bütöv | **4** |

| | | |
|---|---|---|
| | orqanizmin uyğunlaşma reaksiyalarını formalaşdırır. Mərkəzi sinir sisteminin müxtəlif şöbələri haqqında biliklər təqdim olunur: onurğa beyin, baş beyin, arxa beyin, orta beyin, beyincik, ara beyin, ön beyin | |
| | **Psixoterpaiya və psixokorreksiya**<br>Psixoterapiya və psixokorreksiya-psixoloji yardım növlərindən biri (digərləri arasında: psixoloji məsləhət , psixoloji təlim , psixoterapiya) olub, psixoloji təsirin xüsusi vasitələrinin köməyi ilə optimal modelə uyğun gəlməyən psixoloji inkişafın xüsusiyyətlərinin terapiyası və korreksiyasına yönəlmiş fəaliyyət hesab olunur. Psixoterapiya və psixokorreksiya fənni çərçivəsində nəzəriyyə və təcrübə, psixoloji məsləhət,psixoterapiya və konsultasiya üzrə metodların hazırlanması,klinik psixoanalizə giriş,koqnitiv-davranış psixoterapiyası, analitik psixoterapiyaya giriş,ailə psixologiyası və ailə psixoterapiyası, problemli uşağı olan ailələrə psixoloji yardım, nevrozların doktrinası, yetkinlik böhranı zamanı davranış anomaliyalarının diaqnostikası və korreksiyası,psixoloji nəzarət, cinsi pozuntuların müalicəsində psixoterapevtik müdaxilə və korreksiya məsələləri öyrədilir. | |
| **31.** | **ASF və sensor sistemin fiziologiyası**<br>Ali sinir sistemi və sensor sistemin fiziologiyası fənni beyin haqqında təlimin əsas inkişaf sahələri, orqanizmin bir sıra mühüm həyati funksiyalarının sinir tənzimlənməsi, heyvan və insanda ali sinir fəaliyyətinin mürəkkəb davranış formalarını öyrədir. Buna əlavə olaraq, I və II siqnal sistemləri, insanın ali sinir fəaliyyətinin tipləri, xüsusiyyətləri, pozğunluqları, yuxu, motivasiya, emosiya, yaddaş, sensor sistemlər və onların funksiyası haqqında mövzuları təqdim edir. | **5** |
| | **Psixoloji maariflәndirmə və psixoprofilaktika**<br>Psixoloji maarifləndirmə və psixoprofilaktika fənni məktəbdə pedaqoji kollektivi, şagirdləri, valideynləri psixoloji biliklərlə tanışlığı həyata keçirir. Bu iş müxtəlif | |

| | | |
|---|---|---|
| | üsullarla, o cümlədən mühazirələr, söhbətlər, seminarlar və s.kimi metodları həyata keçirilir. Psixoloji maarifləndirmə və psixoprofilaktika yaşlıların və uşaqların psixoloji biliklərə yiyələnməsini nəzərdə tutur. Bu kurs çərçivəsində psixoloji maarifləndirmənin və psixoprofilaktikanı əsas istiqamətləri, mövzusu, başlıca metodları, onların differensasiyası, zəruri biliklərə yiyələnmənin səmərəli və effektiv metodları öyrədilir. | |
| **32.** | **Sosiologiya**<br>Bu fənn sosial hadisələri və prosesləri bütöv sosial sistem olan cəmiyyət kontekstində nəzərdən keçirir, sosiologiyanın strukturunu, predmetini, metodologiyasını, metodlarının xüsusiyyətlərini, müasir sosioloji biliyin nəzəri səviyyələrini, eləcə də xüsusi sosioloji konsepsiyaların rəngarəngliyini təhlil və tədqiq edir. Bu sahədə elmi axtarışların mümkün perspektivlərini öyrənir. | **3** |
| | **Mədəniyyətşunaslıq**<br>Mədəniyyət – insanın, cəmiyyətin və dövlətin tükənməz inkişaf mənbəyidir. Bu, ölkənin müstəqillik və sabitliyinin əsası, xalqın həyat rifahı və keyfiyyətinin mənbəyi, dövlətin rəqabət qabiliyyətliliyi və təhlükəsizlik şərtidir. Azərbaycan mədəniyyətinin inkişafı hər zaman görkəmli siyasi və dövlət xadimi, cəmiyyətin və dövlətin rifahı naminə özünün titanik fəaliyyəti, idarəetmə mədəniyyəti və uğurları ilə bütün dünyada yüksək nüfuz qazanmış, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları arasında seçilir. Onlardan ən dəyərlisi, ən əhəmiyyətlisi – mədəniyyətdir", deyə o qeyd edirdi. Elmi və təhsili inkişaf etdirməyə, ziyalıların, istedadalı alimlər, şairlər, bəstəkarlar, rəssamlar, yazıçıların, artistlərin nüfuzunu yüksəltməyə, Azərbaycan xalqının dilinin və mənəviyyatının inkişafına yardım etməyə çağıraraq, Heydər Əliyev hesab edirdi ki, məhz mədəniyyət bəşəriyyətin topladığı ən yaxşılarla xalqları zənginləşdirir. | |

| | | |
|---|---|---|
| 33. | **Psixologiyada riyazi metodlar**<br>Psixologiyada riyazi metodlar fənni çərçivəsində psixologiya elmində istifadə olunan statistik alətlər təqdim olunur. Bu fənn psixoloji fərziyyəni yoxlamaq üçün müxtəlif statistik təhlillərdən istifadəni öyrədir, həmçinin, eksperimental, kvazi-eksperimental və korrelyasiyalı tədqiqat dizaynlarının üstün və çatışmayan cəhətlərini araşdırmağa kömək edir. Hal-hazırda psixoloji məlumatların riyazi təhlilini verən kompyuter proqramlarının olmasını nəzərə alaraq bu fənnin tədrisi zamanı əsas diqqət SPSS, Stata kimi kompyuter proqramlarının mənimsənilməsinə, bu və ya digər statistik metodun öyrənilməsinə yetirilir. | 5 |
| | **Azərbaycan psixologiyası tarixi**<br>Azərbaycan psixologiyası tarixi fənni Azərbaycanda da psixoloji fikrin yaranması və inkişafının isiqamətlərini öyrədir. Bu fənn çərçivəsində elməqədərki və elmi psixologiyanın təşəkkülü və inkişafı araşdırlır, Azərbaycanda psixologiyanın bir elm kimi təşəkkülündə dünya psixoloqlarının rolu müəyyən edilir, Azərbaycan şifahi xalq ədəbiyyatında, mifologiyada psixoloji fikrin inkişafının əsas elementləri tədqiq edilir. Bununla yanaşı Azərbaycan psixoloji fikrin inkişafında Şərq fəlsəfi fikriləri, xalq yaradıcılığı, ictimai-tarixi proseslərin tsəirindən ortaya çıxan psixoloji məsələlər, Azərbaycan klassik ədəbiyyat nümayəndələrinin və maarifçilərinin psixoloji görüşləri,psixoloji fikrin yaranması və inkişafında, filosof və yazıçıların, şairlərin yaradıcılığı, Kitabi-Dədə Qorqud" dastanı, Nizami, Tusi, Nəsimi, Füzuli, Axundov, S.Ə.Şirvani, M.Ə.Sabir, C.Məmmədquluzadə və digər mütəffəkirlərin yaradıcılığı Azərbaycan psixoloji fikrinin yaranması, inkişafı və formalaşmasında rolu məsələləri öyrədilir. Həmçinin bu kursda müasir Azərbayn psixoloqlarının əsərləri və tədqiqat yönümləri də diqqət mərkəzinə gətirilir. | |
| 34. | **Antropologiya**<br>Antropologiya insanın mənşəyini , inkişafını təbii və mədəni mühitlərdə mövcudluğunu öyrənən elmi sahəsidir.Antropologiyanın bir elm təbiət tarixini, fiziki quruluşunu, psixologiyasını, mədəniyyətini və dilini əhatə edən bir elm olmaqla yanaşı, insan haqqında universal elm kimi özünü göstərir. İnsan təbiəti və insan cəmiyyəti haqqında ilk ümumi anlayışlar coğrafi determinizm və təkamülçülük nəzəriyyəsinin əsas istiqamətləri də bu elm sahəsi tərəfindən öyrənilir. | 5 |

| | | |
|---|---|---|
| | **Neyropsixologiya**<br>Neyropsixologiya psixologiya və nevrologiyanın kəsişməsində, beynin quruluşu və fəaliyyəti ilə canlıların psixi prosesləri və davranışları arasındakı əlaqəni dərk etməyə yönəlmiş fənlərarası elmi istiqamətdir. Bu elm çərçivəsində psixi funksiyaların beyin təşkili, beynin fərdi struktur və funksional bölmələrinin rolu, beyinin psixoloji diaqnostikası və reabilitasiyası, beyin çatışmazlığının müxtəlif formalarında yüksək psixi funksiyaların pozulmasın sindromu, beyin təşkili, nitqsiz HMF (nitqsiz praksislərin müxtəlif növləri); nitqin funksiyası, danışıq və digər HMF pozuntuları, onların diaqnostikası və inkişaf prosesində korreksiya və reabilitasiyası,beyin zədələnməsindən asılı olaraq nitqin və digər HMF-nin pozulması - yerli, diffuz, keçiriciliyin zonalararası əlaqələri və s.kimi məsələləri öyrədilir. | |
| **35.** | **Psixoloji maarifləndirmə və psixoprofilaktika**<br>Psixoloji maarifləndirmə və psixoprofilaktika fənni məktəbdə pedaqoji kollektivi, şagirdləri, valideynləri psixoloji biliklərlə tanışlığı həyata keçirir. Bu iş müxtəlif üsullarla, o cümlədən mühazirələr, söhbətlər, seminarlar və s.kimi metodlarla həyata keçirilir. Psixoloji marifləndirmə və psixoprofilaktika yaşlıların və uşaqların psixoloji biliklərə yiyələnməsini nəzərdə tutur.Bu kurs çərçivəsində psixoloji maarifləndirmənin və psixoprofilaktikanı əsas istiqamətləri, mövzusu, başlıca metodları, onların differensasiyası, zəruri biliklərə yiyələnmənin səmərəli və effektiv metodları öyrədilir. | **4** |
| | **Psixoloji testlər**<br>Psixoloji test fənni psixologiyada fərdi psixoloji fərqlərin müəyyən edilməsi və ölçülməsi prosedurunun müxtəlif məsələlərini öyrədir. Bu fənn çərçivəsində müxtəlif məsələlər, o cümlədən peşə rəhbərliyinin , peşə seçimi, psixoloji məsləhət, islah işlərinin planlaşdırılması, tədqiqat fəaliyyəti və s. kimi sahələrdə testləşdirmənin mexanizmləri öyrənilir. Bununla yanaşı bu kursda qiymətləndirmə texnikasının bir sıra xüsusiyyətləri fərqli tipli standartlaşdırılmış suallar və ya tapşırıqlar toplusu, nəticələrin kəmiyyətcə qiymətləndirilməsinə imkan verən bir və ya bir neçə ölçü şkalası, hər bir tapşırığa cavabın bir və ya bir neçə ölçmə şkala ilə əlaqəsi də araşdırlır. | |

| | | |
|---|---|---|
| 36. | **İşgüzar ingilis dili**<br>İngilis dili beynalxalq dil olmağı ilə yanaşı, həmçinin əsas işgüzar dilidir. Bu baxımdan işgüzar ingilis dilinin yüksək səviyyədə bilməsi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, işgüzar ingilis dili bacarıqlarının artırılması iş effektivliyini, biznes və karyera perspektivlərinin yüksəldilməsinə köməkilik edəcəkdir. Bu fənn vasitəsi ilə tələbələr şifahi ingilis dili üzrə işgüzar ünsiyyət bacarıqları və özünə inamı artırmaq, müzakirə və danışıqlar üçün dil bacarıqlarını inkişaf etdirmək, ingilis dilində təqdimatlar etmək, işgüzar yazışma qaydaları, habelə ingilis dilli ölkələrin biznes mədəniyyəti və protokol məsələlərini öyrənmək imkanına yiyələnəcəklər. Xarici dilin tədrisi zamanı tələbələrdə dilin komponentlərinin(tələffüz, lüğət və qrammatika) və dil bacarıqlarının(oxu,yazı, dinləmə və danışıq) inkişaf etdirilməsi diqqət mərkəzində durur. Tədris materialının ardıcıllığına gəldikdə demək lazımdır, ki burada məqsəd tələbələrlə şifahi nitq vərdişlərini mümkün qədər tez inkişaf etdirməkdən ibarətdir, yəni ilk növbədə dildə ən çox yayılmış hadisələri öyrənmək lazımdır. Bu fənnin tədrisində qrammatikaya da xüsusi yer verilir. Təlim prosesində tələbələrlə müstəqil çalışmaq bacarıq və vərdişlərini aşılamaq lazımdır. Fənnin əsas məqsədi tələbələri danışıq zamanı tərcümədə qarşıya çıxan problemlərlə tanış etmək və birbaşa ünsiyyətdir. Hər dərsdə yeni materiallar, psixologiya ixtisasına aid terminlər tələbələrə təqdim olunur, mətn,yeni sözlər, ifadələr və onların izahı izah olunur. Dərsin tədrisində psixologiya ixtisasına aid terminlərin müzakirəsinə geniş yer verilir. | 3 |
| | **Azərbaycan Respublikasının Konstitisiyası və hüququn əsasları**<br>Azərbaycan Respublikasının Konstitisiyası, Azərbaycan dövlətinin konstitisiya statusu, Azərbaycan Respublikası vətəndaşlığı, insan və vətəndaş hüquqları, azadlıqları və vəzifələri, dövlət hakimiyyəti, Konstitusiya əsasında hakimiyyətin bölünməsi, qanunvericilik hakimiyyəti, icra hakimiyyəti və onun orqanları, məhkəmə hakimiyyəti, onun quruluşu və sistemi, əmək hüququnun əsasları, mülki hüququn əsasları, ailə hüququnun əsasları, cinayət hüququnun əsasları. | |
| 37. | **İnformasiya texnologiyaları (ixtisas üzrə)**<br>Verilən, informasiya və bilik anlayışları, onların xassələri, xarakteristikaları, Əlifbalar, sistemlər, dillər, say sistemləri, kodlaşdırma sistemləri. informasiyanın kodlaşdırılması, hesablama texnikasının təşəkkülü, inkişafı, fərdi komputerlərin | 3 |

| | | |
|---|---|---|
| | texniki təminatı, əsas və periferiya qurğuları, informasiya proseslərinin avtomatlaşdırılması alqoritmləri, fərdi kompyuterlərin proqram təminatı,Əməliyyat sistemləri, Windows ƏS, Windows ƏS-nin standart proqramları, tətbiqi proqram təminatı, Ms Office paketi haqqında, mətn tipli informasiyaların emalı, Ms Word mətn redaktoru, kompyuter qrafikası, Qrafik redaktorlar, Ms Power Point qrafik redaktoru, ədəd tipli informasiyaların emalı, Ms Excel elektron cədvəli, verilənlər Bazası, Baza modelləri, VBİS-lər, informasiya sistemləri, Relyasion VBİS-lər, Ms Access VBİS, informasiyanın şəbəkə emalı. Kompüter şəbəkələri, Lokal şəbəkələr, Şəbəkə topologiyaları, şəbəkə arxitekturası,OSİ modeli, Protokollar, ünvanlaşma, qlobal informasiya infrastrukturu İnternet, informasiya təhlükəsizliyi. | |
| | **İnformasiyanın idarə edilməsi**<br>İnformasiyanın idarə edilməsi fənni İKT baza kompyuter bilikləri fənninin davamı olaraq tədris edilir. Fənnin tədrisində əsas məqsəd - İKT baza kompüter bilikləri fənnində öyrənilənlərin tətbiqi ilə tanış olmaq, informatlaşmış cəmiyyət dövründə müasir informasiya texnologiyalarının tətbiq sahələrini öyrənmək və onları düzgün tətbiq edə bilməkdir. Belə ki, burada dövlət idarəçiliyində, iqtisadiyyatda, bank və turizm sektorunda, biznes sahəsində informasiya texnologiyalarının rolu, həmçinin bulud texnologiyaları, onun tətbiqləri və modelləri haqqında məlumat verilir. | |
| **38.** | **Etnopsixologiya**<br>Etnopsixologiya fənni respubkikamızda bizim etnik-psixoloji keçmişimiz barədə, etnik milli hislər, adət və ənənələr, etnik stereotip və yönümlər, etnoslararası münasibətlər, etnik milli xarakterlər, etnosun davranış və rəftarınaonların təsiri kimi vacib problemləri araşdırır. Bu fənn tələbələrə hər bir mütəzəssistenik –psixoloji problemlərə dərindən bələd olmağa yönəltməklə millətlərarası münasibətlərdə yol verilmiş səhvləri bir daha təkrarlanmağa, özünün praktik fəaliyyətində ondan bəhrələnməyə imkan verir. Etnopsixologiyailə bağlı təsəvvürlərin formalaşması.Bu kursda tələbələrin psixoloji yetkinliyini, inkişafını yaxşılaşdırmaq, etnopsixologiya sahəsində peşəkar bacarıqlar formalaşdırılması, xarici ölkələr ilə əməkdaşlıqda tolerantlığın yaradılması, etnopsixologiyanın əsasları, müxtəlif millətlərin və xalqların milli-psixoloji xüsusiyyətləri ilə tanışlıq, müxtəlif xalqların etnik- psixoloji xüsusiyyətləri və onların fərqli hadisələr zamanı təzahür edən davranış formaları öyrədilir. | **5** |

| | | |
|---|---|---|
| | **Koqnitiv, humanist və geştalt psixologiya**<br>Bu kursda koqnitiv, humanist və geştalt psixologioyanın yaranmasının tarixi, hər bir psixoloji məktəbin prinsipləri, ayrıca götürülmüş metodoloji istiqamətləri, psixi funksiyalara yanaşma tərzləri və psixoterapevtik texnikları diqqət mərkəzinə gətirilir. Həmçinin bu kursda koqnitiv, humanist və geştalt psixologiyada aparılmış tədqiqatların sistemli təhlili verilir, ayrı-ayrı məktəblərin nümayəndələrinin baxşıları və ümumi yanaşma istiqamətləri də tələbələrə öyrədilir. | |
| **39.** | **Psixolinqivistika**<br>Psixolinqvistika psixologiya ilə dilçiliyin kəsişməsində olan bir elm sahəsidir . O, dil , təfəkkür və şüurun əlaqəsini öyrənir . Bu elm çərçivəsində nitqin yaranması - və qavranılması mexanizmlərinin öyrənilməsi əsasında nitq məlumatlarının təsviri, cəmiyyətdə nitq fəaliyyətinin funksiyalarının öyrənilməsi,nitq məlumatları ilə ünsiyyət iştirakçılarının xüsusiyyətləri arasındakı əlaqənin öyrənilməsi (natiqin niyyətlərinin məlumatlara çevrilməsi, dinləyicilər tərəfindən şərh edilməsi),şəxsiyyətin inkişafı ilə əlaqədar nitq inkişafının təhlili öyrənilir. | **5** |
| | **İdarəetmə və menecmentin psixologiyası**<br>İdarəetrmə və menecment psixologiyası fənni idarəetmə nəzəriyyəsi və psixologiyasının qovşağında formalaşmış və inkişaf etməkdə olan bir elmdir. Bu fənn idarəetmə psixologiyası predmetinin mürəkkəb xarakterini və məzmununun genişliyini müəyyən edir, eyni zamanda bu iki fənnin əsas məlumatlarına əsaslanır, təşkilati sistemlərin strukturunun, idarəetmə nəzəriyyələri və fəaliyyətinin xüsusiyyətlərini ortaya qoyan qeyri-psixoloji ideyalarla uyğun olaraq psixoloji bilikləri üzvi şəkildə inteqrasiya edir. Bu kursda idarəetmə fəaliyyəti anlayışını əsas götürsək, ən mühüm psixoloji problemlərin diapazonunu müəyyən etmək və onları əlaqələndirilmiş sistemə daxil etmək mümkündür. Burda liderin şəxsiyyətində idarəetmə psixologiyası, onun idarəetmə ehtiyaclarını və qabiliyyətlərini, həmçinin ən mühüm vəzifəni, problemli məzmunu, idarəetmə niyyətlərini, şəxs tərəfindən qəbul edilmiş idarəetmə prinsip və qaydalarını özündə birləşdirən fərdi idarəetmə konsepsiyasını fərqləndirir. | |

| | | |
|---|---|---|
| **40.** | **Ünsiyyət və münasibətlərin psixologiyası**<br>Ünsiyyət və münasibətlər psixologiyası insanlar arasında ünsiyyət və münasibətlər problemlərini öyrənən və həll edən bir elmdir. Buraya verbal və qeyri-verbal ünsiyyət, ünsiyyət formaları və vasitələri, münasibətlərin qurulması yolları, ünsiyyət dili, münasibətlərin effektiv təşkili üçün zəruri olan ünsiyyət texnikaları, danışıqlar sənəti və bir çox başqa faydalı mövzular daxildir.Bu fənn çərçivəsində insanın psixoloji münasibətləri haqqında nəzəri fikirlərin inkişaf istiqamətləri, "münasibət" kateqoriyasının elmi təhlili, psixoloji münasibətlərin subyektləri, obyektləri və növləri haqqında məsələlər tələbələrə öyrədilir. | **5** |
| | **Biheviorizm, psixoanaliz nəzəriyyəsi və metodikası**<br>"Biheviorizm, psixoanaliz nəzəriyyəsi və metodikası" fənnin tədrisində biheviorizmin yaranması və inkişafı, əsas prinsipləri, davranış psixologiyanın predmeti kimi, bihevieorizmdə şüur və şəxsiyyət, öyrənmə nəzəriyyələri, operant öyrənmə, operant refleks, xətti detreminizm, o cümlədən psixoanalizin formalaşması istiqamətləri, libido, şəxsiyyətin strukturu, şüursuzluq prinsipi, irrasional motivlər, insan davranışının əsas motivatorları, səmərə qanunu və s. kimi məslələrə üstünlük verilir.Həmçinin burada psixoanalizin terpaiya texnikaları və metdoları, eləcə də davranış psixoterapiyası məslələri tələbələrə öyrədilir. | |
| **41.** | **Sağlamlıq imkanları məhdud uşaqların psixologiyası**<br>Sağlamlıq imkanı məhdud olan uşaqların psixologiyası kursunun tədrisi "Təhsildə sosial psixoloji xidmət" və "Məktəbəqədər təlim və tərbiyə" ixtisası üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Bu kursda psixi inkişafı pozulmuş uşaqların ümumi səciyyəsi, inkişafda geri qalmanın xüsusiyyətləri, eşitmə funksiyası pozulmuş uşaqların psixoloji xüsusiyyətlərinə diqqət yetirilir. Həmçinin, görmə funksiyası pozulmuş uşaqların psixoloji xüsusiyyətləri, nitq pozuntularına malik olan uşaqların psixoloji xüsusiyyətləri, emosional-iradi pozuntulara malik olan uşaqların psixoloji xüsusiyyətləri, davranış pozuntularına malik olan uşaqların psixoloji xüsusiyyətləri və təlimdə çətinliklərlə qarşılaşan uşaqların inkişafının xüsusiyyətləri öyrənilir. Sağlamlıq imkanı məhdud olan uşaqların psixologiyasının digər elmlərlə əlaqəsi, inkişaf tarixi, əsas bölmələri, tədqiqat prinsipləri, müayinənin əsas prinsipləri, əqli cəhətdən geriləmənin psixoloji xüsusiyyətləri, psixi cəhətdən ləngiməni, eşitmə pozulmasının səbəbləri, görmə pozulmasının səbəbləri, serebral | **5** |

| | | |
|---|---|---|
| | iflicin xüsusiyyətləri, nitq pozulması, erkən uşaq autizmi, minimal beyin diffuziyası, kar-kor-lal uşaqların təlimi, psixi inkişafın kompensasiyası, müayinələrin əsas məqsəd və növləri, psixoloji yardım xidmətinin əsas məqsədi kimi məsələlər təhlil olunaraq müvafiq biliklər tələbələrə ötürülür. | |
| | **İstedadlı uşaqlara psixoloji xidmət**<br>"İstedalı uşaqlara psixoloji xidmət" fənni istedad haqqında müxtəlif nəzəriyyələri, istedadıən psixoloji mahiyyətini, istedadın digər intellektual keyfiyyətlərdən fərqli cəhətlərini, istedadın ölçülməsini, istedadın yaşauyğun inkişaf dinamikasını öyrənilməsini, istedadlı uşaqların vaxtında aşkarlanması texnologiyalarının yaradılması yollarını, o cümlədən məktəb psixoloji xidmətində istedadlılarla işləmək üçün hədəflərin müəyyən edilməsi məsələlərini, müxtəlif fəaliyyətlərdə müstəqil düşüncə, təşəbbüs və tədqiqat bacarıqlarının, yaradıcılığın inkişafına töhfə verən tədris vasitələrinin seçilməsi, keyfiyyətcə yüksək səviyyəli fikirlərin inkişafı səviyyələrini tələbələrə öyrədir. | |
| **42.** | **Defektologiya və loqopediyanın əsasları**<br>Defektologiya və loqopediyanın əsasları fənni nitq pozuntuları, onların qarşısının alınması, diaqnostikası və aradan qaldırılması üsulları, o cümlədən əqli və fiziki qüsurları olan uşaqların inkişafının psixofiziki xüsusiyyətlərini, onların təhsil və tərbiyə prosesinin qanunauyğunluqlarının öyrədir. Bu fənn çərçivəsində tələbələrə nitq terapiyası, nitq pozuntularının səbəbləri, mexanizmlərini, simptomlarını, gedişi, strukturu və korreksiyaedici tədbirlər sistemi haqqında məlumat verilir. | **5** |
| | **Neyrolinqvistik proqramlaşdırma**<br>Neyrolinqvistik proqramlaşdırma fənni şəxsiyyətlərarası ünsiyyətə, şəxsiyyətin inkişafına və psixoterapiyaya psevdo -elmi yanaşmadır. Bu kursda NLP-nin yaranma tarixi, nevroloji proseslər, dil və davranış nümunələri, eləcə də arzu olunan məqsədlərə çatmaq üçün onlara xüsusi texnika ilə təsir etmək bacarığı, psixoloji problemləri aradan qaldırmaq üçün texniklar və s. kimi mövzular öyrədilir. NLP texnikaları müəyyən bir sahədə uğur qazanmış insanların bacarıqlarını əldə etmək üçün davranışlarını kopyalamaq və ya modelləşdirmək məqsədi daşıyır. | |

| | | |
|---|---|---|
| | **Pedaqoji internatura** | **30** |
| | **CƏMİ** | **240** |

**Təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə**

**Ümumi kompetensiyalar (ÜK)**

1.İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına **(ÜK-1).**

2.İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına **(ÜK-2).**

3.Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni,ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə,milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətinə **(ÜK-3).**

4.Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyənetmə bacarığlarına**(ÜK-4).**

5.İş yerində informasiya texnologiyalarından istifadə etmək qabiliyyətinə**(ÜK-5).**

6.Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə**(ÜK-6).**

7.Yeni şəraitə uyğunlaşmaq ,təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə**(ÜK-7).**

8.Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə**(ÜK-8).**

9.Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək,ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına**(ÜK-9).**

10. Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirmək,vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə**(ÜK-10).**

11.Fəaliyyətində sosial və ekoloji məsuliyyətə,eləcə də vətəndaş şüuru və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına**(ÜK-11).**

12.Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına **(ÜK-12).**

**Peşə kompetensiyaları (PK)**

1.Uşaq, yeniyetmə və gənclərin fiziki, intellektual, əxlaqi, mənəvi, sosial inkişafı, şəxsiyyətin

sosiallaşması üçün psixoloji mühit yaratmaq bacarığına **(PK-1).**

2.Yüksək əqli qabiliyyətə, kreativ təfəkkürə malik, milli-mənəvi dəyərlərin daşıyıcıları olan şəxsiyyətlər formalaşdırmaq bacarığına **(PK-2).**

3.Təhsilalanların psixikasının harmonik inkişafının təmin olunmasını, eləcə də baş verə biləcək ləngimə, yayınma və pozuntuların qarşısının alınmasını, bunun üçün şagirdlərin fərdi-psixoloji xüsusiyyətlərini, psixi inkişafın qanunauyğunluqlarını, təlim-tərbiyə işinin psixoloji baxımdan daha səmərəli təşkilini təmin etməyi, psixi sağlamlığın qorunması üçün səriştəli psixoloji xidmət etmək bacarığına **(PK-3).**

4.Təhsilalanların koqnitiv, emosional, sosial inkişafı, şəxsiyyətin formalaşması, eləcə də baş verə biləcək neqativ halların, narkotik maddələrin, spirtli içkilərin istifadəçisinə çevrilməyin, suisid hallarının, məktəbdən yayınma, aqressiya kimi davranışların vaxtında qarşısının alınması üçün psixoloji yardım göstərmək bacarığına **(PK-4).**

5.Təhsil subyektlərinin psixodiaqnostika, psixoprofılaktika, psixokonsultasiya və psixokorreksiyasını, təlim-tərbiyənin daha səmərəli təşkili üçün müəllim, şagird, tələbə və valideynlərin psixoloji biliklərlə maarifləndirilməsi bacarığına **(PK-5).**

6.İstedadlı şagirdləri müəyyənləşdirmək, onları psixi inkişaf və şəxsiyyətin spesifik xüsusiyyətlərinə görə diferensiallaşdırmaq, təlim-tərbiyə işini daha səmərəli təşkil etmək bacarığına **(PK-6).**

7.İstedadlı şagirdləri müəyyənləşdirmək, onları psixi inkişaf və şəxsiyyətin spesifik xüsusiyyətlərinə görə dİferensiallaşdırmaq, təlim-tərbiyə işini daha səmərəli təşkil etmək bacarığına **(PK-7).**

8.Pedaqoji kollektivin demokratik üsullarla idarə olunmasında müəssisə rəhbərləri ilə birgə fəaliyyət göstərmək, iyerarxiya qaydasında qarşılıqlı münasibətləri tənzimləmək, baş verə biləcək münaqişələrin yaranma səbəbləri və aradan qaldırılması yollarını müəyyənləşdirmək, onların qarşısının alınması bacarığına **(PK-8).**

## 1. Tədris və öyrənmə

1.1 Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

1.2 Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.

1.3 Tədris və Öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

1.4 Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq elməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirə, seminarlar və praktiki tapşırıqlar.
- təqdimatlar, müzakirələr və debatlar;
- müstəqil iş araşdırma (məsələn, praktiki nümunələrlə iş);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;

Bu fənlər professor-müəllim heyətinin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən təklif edilir. Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər tələbələr üçün seçmə xarakteri daşımalı, eləcə də tələbələrin xarici mübadilə proqramlarında iştirakına şərait yaratmalıdır**.**

- distant təhsil;
- stimulyasiyalar; və s.

1.5 Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir.

1.6 Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 2. Qiymətləndirmə

2.1 Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də

tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.

2.2 Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) olmalıdır.

2.3 Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

2.4 Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

-yazılı tapşırıqlar;

-bilik və bacarıqlara dair testlər, kompüter əsaslı testlər;

-şifahi təqdimatlar:

-sorğular;

-açıq müzakirələr;

-praktika hesabatları, sahə işləri hesabatları;

-praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;

-layihə işlərinə dair hesabatlar;

-portfolionun qiymətləndirilməsi;

-frontal sorğu;

-qrup şəklində və özünüqiymətləndirmə; və s.

2.5 Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə eldiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

2.6 Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

2.7 Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plagiat problemini anlamaq öyrədilir. Onlar intellektual əməyin əqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 3. Proqramın və hər bir fənnin təlim nəticələri

3.1 Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin akademik heyətin səlahiyyətindədir.

3.2 Təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

3.3 Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 4. İnfrastruktur və kadr potensialı

4.1 Təhsil Proqramının tədris, öyrənmə və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:

Təhlükəsiz təhsil şəraitinə, təhsil fəaliyyəti üçün zəruri imkanlara malik binalara, maddi-texniki və tədris bazasına, təchiz olunmuş tədris kabinetlərinə və laboratoriyalara, auditoriyalara, texniki tədris vasitələrinə, kabinetlərə, yataqxanaya, su, istilik, elektrik sistemlərinə, internet xidmətlərinə, virtual muzeylərə, elektron kitabxanaya, zəngin məlumat bazasına, məlumat axtarış sistemlərinə çıxışa malik olmalıdır.

4.2 Ali təhsil müəssisələrinin professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Digər dövlət, yaxud özəl müəssisələrdən və ya digər müvafiq təşkilatlardan gələn şəxslər də tədrisə cəlb oluna bilərlər.

## 5. Pedaqoji internatura

5.1 Pedaqoji internatura tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir.

5.2 Pedaqoji internatura ümumi təhsil müəssisələrində (ibtidai, ümumi orta və tam orta ümumtəhsil məktəbləri, ümumtəhsil internat məktəbləri, inteqrasiya təlimli internat tipli təhsil müəssisələri, xüsusi məktəblər və xüsusi internat məktəbləri, sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəblər və internat məktəbləri, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün müəssisələr, istedadlı şagirdlər üçün məktəblər, gimnaziyalar, liseylər və digər müəssisələr) təşkil oluna bilər.

5.3 Pedaqoji internaturadan əvvəl ali təhsil müəssisəsi və pedaqoji internatura təşkil olunacaq

ümumi təhsil müəssisəsi ilə müqavilə imzalanmalıdır. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər ümumi təhsil müəssisəsində, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir. Müqavilədə şərtlər, tələbələrin hüquq və öhdəlikləri, digər zəruri təfərrüatlar əks olunur.

5.4 Pedaqoji internaturanın qiymətləndirilməsi müvafiq icra hakimiyyəti orqanın müəyyən etdiyi qaydalara əsasən həyata keçirilir.

## 6. Məşğulluq və omürboyu təhsil

6.1 **"050118 - Təhsildə sosial-psixoloji xidmət"** ixtisası üzrə Təhsil Proqramının məzunları mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn ümumi təhsil müəssisələrində, məktəbdənkənar təhsil müəssisələrində, peşə təhsili müəssisələrində, orta ixtisas təhsil müəssisələrində, təşkilatlarda, idarələrdə, birliklərdə və s. sferalarda, həmçinin mövcud qaydalara riayət olunmaqla müxtəlif təhsil müəssisələrində (ali məktəbdə elmi, elmi-pedaqoji fəaliyyət sahələri istisna olmaqla) praktik psixoloq işləyə bilər.

6.2 Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

6.3 **"050118 - Təhsildə sosial-psixoloji xidmət"** İxtisası üzrə bakalavr proqramının məzunlarının təhsillərini magistratura səviyyəsi üzrə müvafiq ixtisaslaşma seçim cədvəlinə əsasən magistr proqramlarında davam etdirə bilirlər.

6.4 Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Razılaşdırılmışdır:**

**Tədrisin təşkili və yeni təlim texnologiyaları üzrə prorektor:** **dos. Q.A.Qafarov**

**Tədris və metodiki işlər departamentinin rəhbəri: dos. İ.U.Rəhimov**

**Dillər kafedrasının müdiri: dos.N.S.Vəliyev**

**Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri**

| **Təhsil Proqramının təlim nəticələri (PTN) Cədvəl 1** |
|---|
| **PTN 1.** Yüksək yaradıcı və tənqidi təfəkkürə, vətənpərvərliyə, geniş erudisiyaya, sosial-siyasi məsuliyyətə, yazılı və şifahi nitq vərdişlərinə, Azərbaycan dilində ixtisas üzrə yazılı və şifahi təqdimatlar hazırlamağı bacarır, liderlik qabiliyyətinə yiyələnir, xarici dildən sərbəst istifadə etməyi bacarır, effektiv ünsiyyət yaratmaq üçün sual müdaxiləsi, empatik dinləmə, məlumatı dəqiqləşdirmə, məlumatı əlavə təfərrüatla zənginəşdirmə, dilin psixolinqvistikasını və s. kimi texnologiyalara yiyələnir, .hadisləri məntiqi yollarala ümumiləşirməyi bacarır, analitik təfəkkürə malik olur, Azərbaycanda milli-dövlətin təşəkkülü, formalaşmasında ideoloji, iqtisadi və mədəni amillərin rolunu təhlil etməyi bacarır; azərbaycançılıq ideologiyasını dərk edir, multikultural dəyərləri bilir. |
| **PTN 2.** Psixologiya sahəsində informasiyanın qəbulu, saxlanılması, emal edilməsi, axtanşı və istifadəsi zamanı müasir informasiya texnologiyalarından istifadə etmək; psixoloji mənbələrin və məlumat bazalarının idarəolunması sahəsində müvafiq proqramlardan istifadə bacarıqlarını formalaşdırmaq; psixoloji tədqiqat zamanı əldə olunmuş məlumatın statistik təhlilini edə bilmək. |
| **PTN 3.** Psixi proseslərin fizioloji əsasları, ali sinir fəaliyyətinin strukturu, sensor sistemin fiziologiyası və onların funksiyaları üzrə nəzəri bilikləri insanın gündəlik həyatını, emosiyalarını, |

| |
|---|
| düşüncə prosesini və fəaliyyətini təhlil etmək üçün tətbiq etməyi, psixi hadisələrin bioloji əsaslarını, davranışa təsir edən amillər sistemini,inkişaf və ona töhvə verən proseslər sahəsində biliklərə malikdir, onları sistemləşdirməyi bacarır, şəxsiyyətlə fəaliyyətin qarşılıqlı asılılığının nəzəri-psixoloji problemlərini izah edir, psixi inkişafın şərtləri, qanunauyğunluqları, biogenetik və sosiogenetik amillərin rolunu, psixi inkişafın yaş dövlərini təyin edir, ayrı-ayrı psixi proselrin ölməsini apara bilir, psixologiyanın inkişaf tarixi haqqında biliklərə malikdir, müxtəlif psixoloji nəzriyyələri bilir, Azərbaycanda psixoloji fikrin inkişaf istiqamətləri haqqında biliklərə malikdir. |
| **PTN 4.** Empirik və analitik tədqiqat vərdişlərini inkişaf etdirmək; psixoloji tədqiqatın fərziyyəsini yoxlamaq üçün müxtəlif statistik təhlillərdən istifadə etmək; eksperimental, kvazi- eksperimental və korrelyasiyalı tədqiqat dizaynlarını müqayisəli şəkildə təhlil etmək; psixoloji tədqiqatı hazırlamaq, həyata keçirmək və əldə olunmuş məlumatları kəmiyyət və keyfiyyət üsullarından istifadə edərək təhlil etməyi bacarırı, psixoloji testlərlər və metdoikalar haqqında biliklərə malikdir və onlardan istifadəni bacarır. |
| **PTN 5.** Uşaqlarda fizioloji inkişafın əsas istiqamətləri haqqında biliklərə malik olmaq, MSS-i sahəsində əldə edilən bilik və bacarıqları praktik tətbiq edə bilmək, ASF-nin əsalaraını bilmək, qeyri-tipik (anormal) davranışın yaranma səbəblərini araşdıraraq müvafiq psixoloji müdaxilə istiqamətlərini müəyyən etmək; əhalinin psixi sağlamlığının təmin olunması sahəsində qabaqlayıcı (preventiv) tədbirlərin planlaşdırılması və həyata keçirilməsi üzrə tətbiqi bilik və bacarıqlar əldə etmək, psixofioloji apartaın əsas funksiyaları haqqında biliklərə sahib olmaq . |
| **PTN 6**. Pedaqoji fəaliyyətin psixoloji xüsusiyyətlərini, müəllimin funksiyaları, onun şəxsiyyətinə verilən tələbləri seçərək, pedaqoji fəaliyyətin aparıcı qüvvəsi olan müəllimin cəmiyyətdəki yeri haqqında bilklərə sahib olmaq, öyrənmə və inkişaf üzrə, səmərəli tədris üsulları, təhsil siyasəti və təcrübəsini qiymətləndirmək üzrə müxtəlif nəzəri biliklər əldə etmək; tədrisin və təhsil sisteminin sosial xüsusiyyətləri, xarici mühitin öyrənmə prosesinə təsiri yollarını başa düşmək və bu bilikləri tələbə yeni mühitə, qaydalara, həmçinin öz bədən və düşüncələrində baş verən dəyiçikliklərə adaptasiya prosesini təhlil edərkən istifadə etmək, təhsilin layihələndirilmməsinin əsas elemntlərini bilmək, pedaqoji prosesin mahiyyətini, qanunauyğunluqlarını, prinsiplərini, məzmunu, metodlarını, vasitələrini, texnologiyalarını, təşkili formalarını ixtisasına uyğun olaraq sintez etmək bacarığına malik olmaq, psixologiyanın tədrisi istiqamətləini müəyyən etmək . |
| **PTN 7.** Ayrı-ayrı psixoloji bilik üzrə məktəblər,cərəyanlar və onların məşğul olduqları problemlər haqqında müfəssəl bilik əldə etmək; bu məktəbləri/cərəyanları müqayisəli şəkildə təhlil edə bilmək; düşüncə və davranışın tədqiqatı baxımından bu məktəblərin/cərəyanların tənqidi təhlilini vermək; psixologiya sahəsində müasir dövrdə hansı araşdırma istiqamətlərinin |

| |
|---|
| (və nə üçün) prioritet təşkil etməli olduğu ilə bağlı şəxsi mülahizə yürüdə bilmək. |
| **PTN 8.** İnsan psixikasının inkişaf dinamikası, şəxsiyyətin psixi prosesləri və psixi xassələrinin ontogenezinin inkişaf xüsusiyyətləri üzrə əsaslı biliklər əldə etmək; müxtəlif yaş dövrlərinə xarakterik olan psixoloji və davranış xüsusiyyətləri, həmçinin, müəyyən etmək; insanın psixiki inkişafının hərəkətverici qüvvələri, şəraiti və qanunauyğunluqlarını təhlil etmək; insan inkişafı üzrə mövcud nəzəriyyələrə istinad edərək fərdin müxtəlif yaş dövrlərində düşüncə və davranışlarını izah etmək. |
| **PTN 9**. İnsanlarla onların xarici mühiti arasında olan qarşılıqlı münasibətlər, insanların qavrama və düşüncə prosesinə təsir edən sosial amillər və insanlararası münasibətlər haqqında bilik və tətbiqi bacarıqlar əldə etmək; fərdin düşüncələrinə, hisslərinə və davranışlarına təsir edən sosial situasiyaları təhlil etmək; şəxsiyyət daxili və şəxsiyyətlərarası münasibətlər haqqında biliklərə malik olmaq . |
| **PTN 10.** Mülki müdafiənin əsaslarını, qüvvə və vasitələrini bilir, fövqəladə hallar və onların xarakteristikalarını bilir, fövqəladə hallarda əhalinin mühafizəsi, əhalinin mülki müdafiə üzrə maarifləndirilməsi haqqında biliklərə yiyələnir, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyi bacarır, fövqəladə hallarda sənaye obyektlərinin işinin dayanıqlığının əsaslarını və qiymət-ləndirilməsini bacarır. |
| **PTN 11.** Sosial psixoloji münasibətlər haqqında biliklərə malik olmaq, streotiplər, qərəzli münasibət və müxtəlif mənşəli ayrıseçkiliyin yaranma səbəblərini və bunlar arasında olan əlaqələri başa düşmək və psixoloji ədəbiyyatda mövcud olan strategiyalara istinad edərək həlli yollarını araşdırmaq.,ünsiyyət qurmağın effektiv yollarını müəyyənləşdirmək, ailənin psixoloji mahiyyəti, ailədaxili münasibətlərin strukturu, ailə tipləri haqqında məlumat əldə etmək; ailə sisteminə təsir edən sosial mədəni amaİlləri və mühiti araşdırmaq, müxtəlif mədinyyətlərdə ailənin formalaşmasına və fəalaiyyətinə dair tədqiqatları təhlil etmək; ailə sistemində yaranan ailədaxili münasibətlərin dəyişnməsini, ailə üzvlərini bu dəyişikliklərə uyğunlaşdırılmasını şərtləndirən amillər və ailədə münaqişəli münasibətlərin yaranma səbəblərini təhlil edərərk, ailə və gender münasibətlərində müxtəlif müdaxilə strategiyalarını araşdırmaq, insanları əhatə edən sosial və təbii mühit, orada baş verən dəyişikliklər və inkişaf proseslərini müvafiq şəkildə izah edir, şəxsiyyətin sosiallaşmasının ümumi xarakteristikasını izah edir, şəxsiyyətin sosiallaşmasına təsir edən amilləri qruplaşdırmaq, sosial araşdırmalar yolu ilə gündəmdə mövcud ictimai-siyasi, sosial hadisələri öyrənməık və problem olduqda həll yollarını təklif etmək bacarığına sahib olmaq. |

| |
|---|
| **PTN 12.** Psixoprofilaktika, psixi və fiziki sağlamlığın qorunması və yaxşılaşdırılması, sağlam həyat tərzinin formalaşdırılması məqsədi ilə əhaliyə psixoloji məsləhət vermək istəyi və bacarığı, emosional problemlərlə bağlı valideynlərə məsləhət vermək üçün müasir prosedurları və texnologiyaları tətbiq etmək, fərdi inkişaf ,uşaq və yeniyetmələrdə davranış sapmalarını korreksiya etmək bacarığı və hazırlığı, psixoanalizdən istifadə etməklə pasiyentlərin normal psixoloji vzəiyyətə gəlməsini təmin edə bilmək, fərdi və qrup üçün strategiya tərtib etmək bacarığı, əlilliyi olan tələbələrlə korreksiyaedici və inkişaf etdirici iş, diaqnostik nəticələrə əsaslanan sağlamlıq imkanlarını müəyyənləşdirmək bacarığı, sağlamlıq imkanı məhdud olan uşaqların psixologiyasının mövzusunu, vəzifələrini, əsas prinsipləri və metodları haqqında müstəqil məlumatları sistemləşdirmək. |
| **PTN 13.** Multikultural dəyərlər haqqında biuliklərə malik olmaq, siyasi fəaliyyətin və siyasi şüurun mexanizmləiri, qaununuayğuluqları üzrə biliklər əldə etmək; siyasət sahəsində şəxsi amillərin rolunu, siyasi liderlik anlayışını, siyasi liderin xüsusiyyəıtlərini, növlərinin və funksiyalarını, kütləvi davranışın mexanizmlərini və formalarını, bu prosesdə emosiyaların rolu və əhəmiyyətinin siyasi kommunikasiyanın psixoloji xüsusiyyətlərini araşdımaq; qrup problemini, kütlələlərin siyasətdə rolunu, seçki kompaniyasının təşkilinin psixoloji mexanizmini, həmçinin siyasi davranışı təhlil etmək**.** |
| **PTN 14.**Müasir sahibkarlığın psixologiyası üzrə biliklər, tətbiqi bacarıqlar əldə etmək; insanların bazar sistemi şəraitinə, konstruktiv adaptasiya prosesinin və buna təsir edən amilləri araşdırmaq; sahibkaralıq fəaliyyətinin inkişafının psixoloji qanunauyğunluqlarını, müasir sahibkarın psixoloji xüsusiyyətlərini, işgüzar situasiyaları təhlil etmək; sahibkarlıq potensialının üzə çıxamsı və şəxsi potensialın diaqnostikası üzrə tətbiqi bacarıqlara yiyələnmək, mencerin səmərəli fəaliyyətini, fərdi və qrup şəklində qərar qəbuletmə prosesinin xüsusiyyətlərini, liderliyi motivləşdirmənin normaları, dəyərlər və s. şərtləndirən psixoloji amilləri təhlil etmək; idarəetmə prosesində yaranan potensial sosial-psixoloji proiblemlərin həlli yollarını müəyyən etmək. |

**“050118- Təhsildə sosial -psixoloji xidmət” ixtisası üzrə**

**Əsas fənlər (FTN)**

| **Xarici dildə işgüzar və akademik kommunikasiya(FTN)** |
|---|
| **FTN 1.** Yazılı və şifahi nitq prosesində xülasələşdirmək, parafraz etmək, sintez etmək kimi bacarıqlar nümayiş etdirmək. |

| |
|---|
| **FTN 2.**Nisbətən mürəkkəb mətnləri oxuyub təhlil edə bilmək; dinlədiyi və oxuduğu mətnin (ixtisasına uyğun elmi, ictimai-siyasi və s.) icmalını təqdim edə bilmək. |
| **FTN 3.**Müəyyən edilmiş məqsədə uyğun yazı strategiyaları seçə bilmək; müxtəlif janrlarda yazı nümunələri nümayiş etdirmək; yazılı şəkildə işgüzar kommunikasiya yaratmağı bacarır. |
| **FTN 4.** Effektiv ünsiyyət yaratmaq üçün sual müdaxiləsi, empatik dinləmə, məlumatı dəqiqləşdirmə, məlumatı əlavə təfərrüatla zənginəşdirmə və s. kimi texnologiyalara yiyələnmək. |
| **FTN 5.** İxtisas sahəsi daxilində müzakirələrdə iştirak edə bilmək; şifahi şəkildə işgüzar kommunikasiya yaratmağı bacarır. |
| **FTN 6.** Öyrəndiyi dildə yazılı təqdimatlar hazırlamağı bacarır. |
| **FTN 7.** Konkret sual ətrafında rabitəli, məntiqli və adekvat şifahi və yazılı mətn formalaşdırmaq. |
| **Azərbaycan tarixi(FTN)** |
| **FTN 1.** Azərbaycanın dünyanın ən qədim yaşayış məskənlərindən, ilk sivilizasiya məkanlarından biri olmasını müəyyən etməyi bacarır. |
| **FTN 2.** Azərbaycanın müxtəlif dövrlərdə dövlətçiliyinin təşəküllü şəraitini, siyasi, beynəlxalq amilləri təhlil etməyi bacarır. |
| **FTN 3.** Azərbaycanda milli-dövlətin təşəkkülü, formalaşmasında ideoloji, iqtisadi və mədəni amillərin rolunu təhlil etməyi bacarır; azərbaycançılıq ideologiyasını dərk edir. |
| **FTN 4.** Müxtəlif dövrlərdə Azərbaycan dövlətçiliyinin zəifləməsinə təsir göstərmiş xarici və daxili amilləri təhlil etməyi və ümumiləşdirməyi bacarır. |
| **FTN 5.** Azərbaycan dövlətinin müasir dünyada yeri və rolunu sistemli şəkildə öyrənmək. |
| **FTN 6.** Azərbaycan tarixinin inkişafının tarixi təcrübəsindən düzgün nəticələr çıxarmağı bilmək. |
| **FTN 7.** Müasir mərhələdə Azərbaycan dövlətçiliyinin güclənməsini şərtləndirən amilləri, şəxsiyyətin rolunu təhlil və müəyyən etməyi bacarır. |
| **“Azərbaycan dilində işgüzar və akademik kommunikasiya” (FTN)** |
| **FTN 1.** Qloballaşma şəraitində Azərbaycan dili və ona göstərilən dövlət qayğısı ilə bağlı məlumatlara yiyələnmək. Dövlət dili haqqında fərman və sərəncamlar, “Ulu öndər Heydər Əliyev və Azərbaycan dili” mövzusunda təqdimatlar hazırlamağı öyrənmək; “Azərbaycan dilində işgüzar və akademik kommunikasiya” fənninin məqsəd və vəzifələrini bilmək. Kommunikasiyanın forma və funksiyaları, kommunikasiya səviyyələri barədə biliklərə sahib çıxmaq. |
| **FTN 2.** Akademik kommunikasiya prosesində köməkçi nitq hissələrinin rolunun nədən ibarət olduğunu mənimsəmək; şifahi və yazılı kommunikasiyalar, habelə nitqə verilən tələblər: nitqin düzgünlüyü, dəqiqliyi, aydınlığı, səlisliyi, təmizliyi, yığcamlığı, sadəliyi, zənginliyi , rabitəliliyi və |

| |
|---|
| digər önəmli məsələlərin rolunu müasir tələblər səviyyəsində öyrənmək. |
| **FTN 3.** Kommunikasiya ritorikasının nədən ibarət olduğunu, ədəbi dilin üslublarını, Azərbaycan ədəbi dilinin aktiv və passiv leksikasını bilmək. Ədəbi dil və kommunikativlik, kommunikativliyin növləri, kommunikativlikdə rabitə və kommunikativ strategiya və yaradıcılıq texnologiyalarını mənimsəmək. |
| **FTN 4.** Dinləmə mədəniyyəti və dinləmənin kommunikasiya növü kimi mahiyyətini öyrənmək. Dinləmə və diqqət, dinləmə formaları, dinləmə bacarıqlarının təkmilləşdirilməsinin önəmini qavramaq; kommunikasiya mədəniyyəti, danışıq etikası və müraciət etiketləri barədə məlumatlara yiyələnmək; təşkil olunmuş nitqin (mühazirə, məruzə, çıxış, spontan nitq) özünəməxsusluğunu bilmək; şifahi şəkildə işgüzar kommunikasiya yaratmaq. |
| **FTN 5.** Müasir Azərbaycan dilinin işgüzar üslubu barədə məlumatları və qaydaları öyrənmək; İşgüzar kommunikasiyada məktubların rolu, elektron və onlayn kommunikasiyalar barədə biliklərini zənginləşdirmək; yazılı şəkildə işgüzar kommunikasiya yaratmaq. |
| **FTN 6.** Rəsmi-işgüzar sənədləri dili barədə məlumatları öyrənmək; işgüzar kommunikasiyaların növləri və formaları, həmçinin dili və üslubu barədə məlumatlara yiyələnmək. İşgüzar kommunikasiyada Azərbaycan dilinin saflığının, orfoqrafiya qaydalarının və cümlə quruluşuna əməl olunmasının mahiyyətini öyrənmək. İşgüzar ritorika haqqında nəzəri və praktik çalışmalara sahib çıxmaq. |
| **FTN 7.** Azərbaycan dilində ixtisas üzrə yazılı və şifahi təqdimatlar hazırlamağı bacarmaq. |
| **Psixologiyanın əsasları (FTN)** |
| **FTN 1.** Psixologiyanın predmeti, psixikanın filogenezdə inkişaf istiqamətləri, psixi inikasın təkamülü, psixologiyanın digər elmlər sistemində yeri, inkişaf tarixi, tədqiqat metodlarını haqqında tətbiqi bililklərər yiyəlnirər, onların tətbiqnin həyata keçirilməsini bacarır. |
| **FTN 2.** Psixologiya elminin digər elmlərlə əlaqələrini başa düşərək interdissiplinar yanaşmalara üstünlük verir, psixi hadisələrin təzahürləri, fəaliyyətin psixoloji məsələləri, tələbat və motivlərin psixoloji problemlərinin nzəzəri və praktik əsaslarını şərh etməyi bilir. |
| **FTN 3.** Dünyada və Azərbaycanda psixoloji fikrin inkişafını təhlil edib müqayisə edə bilir**,** hisslərin psixologiyasını, ünsiyyət psixologiyasının əsas məsələlərini, şəxsiyyətin formalaşma mexanizminin psixoloji məsələlərini prakatik yönümdə şərh etməyi bacarır. |
| **FTN 4.** Psixologiya sahəsində tədqiqat üsulları haqqında biliklər əldə edir**,** insanın fərdi-psixoloji xüsusiyyətləri-temperament, xarakter, qabiiyyətlər, emosional-iradi proseslərin praktik şərhini bacarır və müasir psixologiyanın müxtəlif istiqamətli aktual problemlərini bilir. |

| |
|---|
| **FTN 5.** Psixi hadisələrin bioloji əsaslarını, davranışa təsir edən amillər sistemini,inkişaf və ona töhvə verən proseslər sahəsində biliklərə malikdir, onları sistemləşdirməyi bacarır. |
| **Təhsildə İKT(FTN)** |
| **FTN 1.** Təhsildə informasiya texnologiyaları və onların rolu haqqında bilikləri əldə edir. |
| **FTN 2.** Təhsildə informasiya- kommunikasiya texnologiyalarının növləri, təsnifatı haqqında biliklərə yiyələnir. |
| **FTN 3.** İnformasiya cəmiyyətinin konsepsiyası və xüsusiyyətləri, cəmiyyətin |
| informasiyalaşdırılması prosesinin əsas mərhələləri haqqında biliklər qazanır. |
| **FTN 4.** Müvafiq ixtisas sahəsində müasir texnologiyalardan istifadə etmək praktikasına yiyələnir. |
| **FTN 5.** Müvafiq ixtisas sahəsində informasiya texnologiyalarının rolunu və effektivlik meyarlarının qiymətləndirir |
| **FTN 6.** Müasir Əməliyyat Sistemlərinin iş prinsipini mənimsəyir. |
| **FTN 7.** Proqramlaşdırma bacarığına yiyələnir. |
| **FTN 8.** Veb sistemləri və texnologiyası sahəsində biliklərə yiyələnir və praktik iş təcrübəsi əldə edir. |
| **FTN 9.** Süni intellekt, ekspert sistemləri və s. haqqında biliklər əldə edir. |
| **Uşaq anatomiyası, fiziologiyası və gigiyenası (FTN)** |
| **FTN 1.** Tələbə uşaq orqanizminin, onun hüceyrə, toxuma, orqan və orqanlar sistemi haqqında bilir və izah edir. |
| **FTN 2.** Tələbə sinir sisteminin quruluşunu, onun fiziologiyasını və inkişaf mərhələlərini fərqləndirməyi bacarır. |
| **FTN 3.** Tələbə uşağın dayaq-hərəkət sistemi haqqında biliyə malikdir və izah etməyi bacarır. |
| **FTN 4.** Tələbə qanın tərkibi, ürək, qan- damar sistemi haqqında biliyə malikdir və tətbiq etməyi bacarır. |
| **FTN 5.** Tələbə tənəffüs və həzm sistemini izah etməyi bacarır. |
| **FTN 6.** Tələbə İfrazat sistemi və hiss orqanlarını təhlil etməyi bacarır. |
| **FTN 7.** Tələbə insan orqanizminin çoxalma və inkişafını təhlil etməyi bilir. |
| **Mülki müdafiə və ilkin tibbi yardım(FTN)** |
| **FTN 1.** Mülki müdafiənin əsaslarını, qüvvə və vasitələrini bilir |
| **FTN 2.** Fövqəladə hallar və onların xarakteristikalarını bilir |
| **FTN 3.** Fövqəladə hallarda əhalinin mühafizəsi, əhalinin mülki müdafiə üzrə maarifləndirilməsi haqqında biliklərə yiyələnir. |

| |
|---|
| **FTN 4.** Fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyi bacarır |
| **FTN 5.** Fövqəladə hallarda sənaye obyektlərinin işinin dayanıqlığının əsaslarını və qiymətləndiri-lməsini bacarır. |
| **FTN 6.** Fövqəladə halların nəticələrinin aradan qaldırılması yollarının təşkili və həyata keçirilməsi haqqında biliyə malik olur. |
| **Pedaqogika (FTN)** |
| **FTN 1.** Pedaqogikanın nəzəri əsaslarını, pedaqoji prosesin qanunauyğunluqlarını və yeni pedaqoji texnologiyaları müqayisə edərək tətbiq edir |
| **FTN 2.** Pedaqoji prosesin mahiyyətini, qanunauyğunluqlarını, prinsiplərini, məzmunu, metod-larını, vasitələrini, texnologiyalarını, təşkili formalarını ixtisasına uyğun olaraq sintez edir. |
| **FTN 3.** Pedaqogikanın nəzəri və praktik əsaslarını, idarəetmənin forma və metodlarını müqayisə və tətbiq edir. |
| **FTN 4.** Şəxsiyyətin inkişafına və formalaşmasına təsir edən amilləri müqayisə, təhlil və izah edir |
| **FTN 5**. Təlimin və tərbiyənin təşkilində səmərəli texnologiyaları vəziyyətə uyğun müəyyən edir |
| **FTN 6.** Pedaqoji prosesi təşkil etmək, təlim və tərbiyənin nəzəriyyə və texnologiyalarını müəyyən edir və praktik tətbiq edir |
| **FTN 7.** Pedaqogikanın nəzəri və praktik əsaslarını, idarəetmənin forma və metodlarını müqayisə və tətbiq edir. |
| **Multikulturalizm(FTN)** |
| **FTN 1.** Multikulturalizm fənninin mahiyyətinin və əhəmiyyətinin öyrənilməsi bacarığı |
| **FTN 2.** Azərbaycanda yaşayan müxtəlif azsaylı xalqların adət-ənənələrini təhlil etməyi bacarır. |
| **FTN 3.** Multikulturalizmin sosial-iqtisadi inkişafa təsirlərini təhlil etməyi bacarır. |
| **FTN 4.** Multikulturalizmin xarici siyasətə təsirlərini təhlil etməyi bacarır. |
| **FTN 5.** Multikulturalizmi Azərbaycan Respublikasının Dövlət siyasəti olaraq təhlil etməyi Bacarmaq. |
| **Sosial psixologiya (FTN)** |
| **FTN 1.** Düşüncə prosesində baş verən xətaları, subyektivliyi başa düşərək onları minimuma çatdırmaq üçün müvafiq strategiyaları tətbiq etmək bacarığı |
| **FTN 2.** Streotiplər, qərəzli münasibət və müxtəlif mənşəli ayrıseçkiliyin yaranma səbəblərini və bunlar arasında olan əlaqələri başa düşmək və psixoloji ədəbiyyatda mövcud olan strategiyalara istinad edərək həlli yollarını araşdırmaq. |

| |
|---|
| **FTN 3.** Anti-sosial və müsbət sosial yönümlü davranışın yaranma səbəblərini təhlil etmək və anti-sosial davranışın qarşısının alınması yollarını araşdırmaq |
| **FTN 4.**Qrupların insanın davranışına təsirini başa düşmək və qrupun mənfi təsirinin aradan qaldırılması üzrə strategiyalardan istifadə etmək. |
| **FTN 5.** Təsir və inandırma proseslərin prinsiplərini başa düşmək və müsbət sosial dəyişikliklər əldə etmək məqsədilə tətbiqetmə bacarıqlarına yiyələnmək. |
| **FTN 6.** Sosial psixologiya sahəsində maraqlı olan problemləri həll etmək üçün sosial- psixoloji tədqiqat həyata keçirmə bacarığını əldə etmək |
| **İnkişaf və yaş psixologiyası (FTN)** |
| **FTN 1.** İnkişaf və yaş psixologiyasının mövzusunu, vəzifələrini, başqa elmlərlə əlaqəsini, yaş dövrlərinin inkişaf xüsusiyyətləri haqqında bilikləri elmi əsaslarla təsvir edir. |
| **FTN 2.** Şəxsiyyətin psixoloji cəhətdən öyrənilməsində təbii imkan, hərəkətvericiqüvvə, irsiyyət, mühit, psixi inkişaf, fəaliyyət və ünsiyyətdə psixi inkişaf, təlim prinsiplərini izah edir. |
| **FTN 3.** Təlim prosesi zamanı qazandığı bilikləri praktik təcrübəyə tətbiq edir, alınan nəticələrin psixoloji təhlilini verir. |
